RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 62 (8941) ÇƏRŞƏNBƏ AXŞAMI, 29 mart 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Prezidentdən vətəndaş məmnunluğunun təmin olunmasına mühüm töhfə

### İlham Əliyev Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılışında iştirak edib.**

*Ardı 6-cı səh.*

## Azərbaycan daim humanitar məsələlərə böyük önəm verir



Martın 28-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Söhbət zamanı Prezident Volodimir Zelenski dövlətimizin başçısını Ukraynadakı vəziyyət barədə məlumatlandırıb.

Prezidentlər humanitar dəhlizlərin yaradılması və sülh danışıqlarının davam etdirilməsinin vacibliyini qeyd ediblər.

Telefon danışığı əsnasında Prezident Volodimir Zelenski tibbi ləvazimatlar daxil olmaqla Ukraynaya göstərilən humanitar yardıma görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan daim humanitar məsələlərə böyük önəm verir və xüsusi diqqətlə yanaşır.

***Prezidentin Mətbuat Xidməti***

## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Novruz bayramı münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Novruz bayramı münasibətilə paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:**

"Əziz həmvətənlər!

Novruz bayramı münasibətilə sizi səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik arzulayıram! Təbriklərinizə, səmimi və xoş diləklərinizə görə çox sağ olun! Sizin diqqətiniz, qayğı və dəstəyiniz mənim üçün çox dəyərlidir! Allah Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə rəhmət eləsin, onların doğmalarına və yaxınlarına səbir versin! Qoy təbiətin oyanmasının və yenilənməsinin rəmzi olan Novruz hər evə xoş ovqat gətirsin, hər ocağa bol sevinc, ruzi-bərəkət və firavanlıq bəxş etsin! Uca Tanrı mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin!"

## Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə

Hörmətli cənab Sədr!

Çinin cənubunda "China Eastern Airlines" şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu ağır anlarda kədərinizi bölüşür, baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Çin xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 mart 2022-ci il*

# ZƏFƏRİMİZ hər birimiz üçün qürur mənbəyidir

## Prezident İlham Əliyev Suqovuşandan Azərbaycan xalqını təbrik etdi



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşanda olublar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tərtər rayonunun Suqovuşan qəsəbəsində bayram tonqalı alovlandırıblar. Sonra dövlət başçısı Azərbaycan xalqını təbrik edib. AZƏRTAC təbriki təqdim edir.**

*Bax: səh. 5*

### Suqovuşan qəsəbəsinə çəkilmiş müasir izolyasiyalı və mühafizəli kabel xəttinin təqdimatı olub



*Bax: səh. 2*

### Fərdi evdə aparılmış təmir-bərpa işləri ilə tanışlıq



*Bax: səh. 2*

### Tam orta məktəbin binası əsaslı təmir ediləcək



*Bax: səh. 2*

### İkimərtəbəli yeni məscidin təməli qoyulub



*Bax: səh. 3*

### Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışı olub



*Bax: səh. 3*

### Prezident İlham Əliyev turizm kompleksinin təməlini qoyub



*Bax: səh. 4*

### Avarçəkmə üzrə ilk təlim-məşq toplantısının rəsmi açılışı



*Bax: səh. 4*

## Co Bayden İlham Əliyevi təbrik edib



### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Sizə və Azərbaycan xalqına sevincli və firavan Novruz bayramı arzulayıram. Bu yenilənmə zamanı əməkdaşlığımızı və sülhə sadiqliyimizi yenidən təsdiqləmək üçün bir imkandır.

Bu il Birləşmiş Ştatlarla Azərbaycan arasında diplomatik münasibətlərin 30 illiyidir. Bu ildönümünü qeyd etdiyimiz bir zamanda administrasiyam Cənubi Qafqazda demokratiya, sülh və tərəqqini dəstəkləməyə davam edəcəkdir. Biz həmçinin ortaq təhlükəsizlik narahatlıqlarını həll etmək, regional barışığa təşviq etmək və iqtisadi əməkdaşlıq üçün yeni imkanları araşdırmaq məqsədilə Azərbaycanla birgə işləyəcəyik.

Birləşmiş Ştatlar hökuməti adından Sizə və Azərbaycan xalqına ən xoş arzularımı yetirirəm.

*Səmimiyyətlə,*

***Co BAYDEN,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

## "ABŞ-ın Azərbaycanın sülh gündəliyini dəstəkləyəcəyinə ümidvarıq"

### Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Cozef Baydenə

Hörmətli cənab Prezident!

Novruz bayramı münasibətilə təbrik məktubunuza və xoş sözlərinizə görə Sizə təşəkkürümü bildirirəm.

Sizin də qeyd etdiyiniz kimi, bu il biz Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında əlamətdar ildönümünü - diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Bu hadisə ilə əlaqədar Sizi təbrik edir, dost Amerika xalqına ən səmimi arzularımı çatdırıram.

Məmnunluqla qeyd etmək istəyirəm ki, ötən otuz ildə ölkələrimiz arasında uğurlu ikitərəfli münasibətlər formalaşmışdır. Bu dövr ərzində çoxşaxəli səmərəli fəaliyyətimiz qarşılıqlı investisiya yatırımı, ölkənizi təmsil edən yüzlərlə şirkətin Azərbaycanın iqtisadi həyatında fəal iştirakı ilə müşayiət olunmuşdur.

Azərbaycan ilə Birləşmiş Ştatların ikitərəfli müstəvidə olduğu kimi, çoxtərəfli əsasda da vacib məsələlərin həlli istiqamətində birgə fəaliyyəti təqdirəlayiqdir. Bu baxımdan enerji təhlükəsizliyi, beynəlxalq təhlükəsizlik, terrorizmə qarşı mübarizə tərəfdaşlığımızı səciyyələndirən aparıcı sahələr sırasındadır. Qlobal enerji təhlükəsizliyinin təmin edilməsi üçün böyük əhəmiyyət kəsb edən Xəzər dənizinin Azərbaycan sektorunda zəngin enerji ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəqli, iri-miqyaslı transmilli enerji layihələrinin reallaşması sahəsində ABŞ-ın göstərdiyi ardıcıl dəstəyi yüksək qiymətləndiririk.

Azərbaycan beynəlxalq terrorizm və onun müxtəlif təzahürlərinə qarşı mübarizədə də Birləşmiş Ştatlarla bir sırada yer almış, etibarlı tərəfdaş olduğunu sübut etmişdir. Ölkəmizin NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək missiyası çərçivəsində sona qədər ABŞ-la sıx işbirliyi beynəlxalq sülh və təhlükəsizliyə verdiyimiz töhfənin bariz təzahürüdür.

Hörmətli cənab Prezident!

Bu gün Azərbaycan Respublikası xalqın iradəsi və maraqları əsasında müstəqil siyasət yürüdən dövlətdir. Azərbaycanın tarixi torpaqlarının işğaldan azad edilməsi ilə Ermənistanın Azərbaycana qarşı otuz ilə yaxın davam edən hərbi təcavüzünə son qoyulmuş və ölkəmiz 30 ilə yaxın müddət ərzində icra edilməmiş vəziyyətdə qalmış BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini özü icra etmişdir. Biz sülhün tərəfdarı olaraq ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi beynəlxalq hüququn fundamental baza prinsipləri əsasında Ermənistanla sülh sazişi üzrə danışıqlara başlamağa hazırıq. Gələcəyə köklənmiş baxış əsasında ABŞ-ın Azərbaycanın sülh gündəliyini dəstəkləyəcəyinə ümidvarıq.

İşğaldan azad edilmiş torpaqlarımızda postmünaqişə dövründə bərpa və yenidənqurma işləri həyata keçirilir. Biz ABŞ-dan olan şirkətlərin də bu prosesdə iştirakını görməkdən məmnun olardıq.

İnanıram ki, dost və tərəfdaş olaraq bütün sahələrdə ölkələrimizin maraqları və xalqlarımızın rifahı naminə əhəmiyyətli potensiala malik əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Amerika xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 mart 2022-ci il*

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşanda olublar

## Suqovuşan qəsəbəsinə çəkilmiş müasir izolyasiyalı və mühafizəli kabel xəttinin təqdimatı olub

**“Azərişıq” ASC tərəfindən Azərbaycanda ilk dəfə Tərtər rayonunun Suqovuşan qəsəbəsinə çəkilmiş 35 kilovoltluq müasir izolyasiyalı, kənar təsirlərdən mühafizəli və istismar xərcləri daha az olan kabel xəttinin təqdimatı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təqdimatda iştirak ediblər.

“Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov dövlət başçısına və birinci xanıma layihə ilə bağlı məlumat verdi.

Diqqətə çatdırıldı ki, “Azərişıq” ASC tərəfindən ölkədə ilk dəfə tətbiq edilən, müasir texnologiyalara əsaslanan 35 kilovoltluq izolyasiyalı və mühafizəli kabel elektrik veriliş xətləri ənənəvi hava elektrik xətlərinə nisbətən daha rentabelli və texniki baxımdan şəbəkələrin dayanıqlı işini təmin etmək üçün əlverişli innovativ həldir. Suqovuşan qəsəbəsinin elektrik enerji təchizatında tətbiq edilmiş 35 kilovoltluq kabel xətti məhz belə, müasir şəbəkə quruculuğu üçün əsas elementlərdən biridir. Belə ki, izolyasiya olunmuş 35 kilovoltluq yeni tip xətlərin mühafizə



zonası 3-6 metrdir və bu, mövcud xətlərə nisbətən 6-10 dəfəyə qədər azdır. Mövcud naqillərdə texniki itkilər 9-12 faiz olduğu halda, müasir tipli izolyasiya olunmuş kabellərdə itkilər 3,5-4 faiz təşkil edir. Həmçinin şəbəkələrin saxlanma xərcləri 100 faizdən 30 faizə, illik mal-material sərfi 100 faizdən 25 faizə endirilir. İzolyasiya olunmuş kabellərdə qəza açılmalarının sayı və müddəti mövcud naqil xətləri ilə müqayisədə 60 faizədək azdır.

**Prezident İlham ƏLİYEV:** Bütövlükdə gələcəkdə ölkəmizin bütün yerlərində bu sistemə keçmək lazımdır.

**Vüqar ƏHMƏDOV:** Cənab Prezident, siz artıq tapşırıq vermisiniz. Biz Bakıda da bunun üzərində işləyirik.

Bildirildi ki, yeni kabel xətlərinin tətbiqi yüksək gərginlik xətlərinin bilavasitə altında, yaxud yaxınlığında yerləşən yaşayış və əkin sahələrinin, həmçinin insanların fəaliyyət təhlükəsizliyi dəfələrlə artır, təbiət hadisələrinin elektrik veriliş xətlərinə təsiri aradan qalxır. İzolyasiya olunmuş yeni tip kabel xətlərinin istifadəsi ümumilikdə ölkənin enerji sisteminin dayanıqlılıq, etibarlılıq və səmərəlilik göstəricilərini beynəlxalq standartlara yaxınlaşdırmağa imkan verir. Eyni zamanda bu növ kabel xətlərinin istənilən mühitdə, o cümlədən yeraltı, sualtı və hava ilə çəkilişinin mümkünlüyü işğaldan azad edilmiş ərazilərdə qurulan 35/0,4 kilovoltluq innovativ paylayıcı şəbəkələrin istismarını asanlaşdırmaqla yanaşı, dayanıqlı fəaliyyətini də tam təmin edəcəkdir.

## Tam orta məktəbin binası əsaslı təmir ediləcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşana səfərləri çərçivəsində qəsəbədəki 144 şagird yerlik tam orta məktəbin binasında olub, təhsil müəssisəsindəki vəziyyətlə maraqlanıblar.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına və birinci xanıma eskiz layihəsi əsasında məlumat verdi.

Qeyd olundu ki, yararsız vəziyyətə düşmüş Suqovuşan qəsəbə tam orta məktəbinin binası Təhsil Nazirliyi tərəfindən təmir olunacaq. Diqqətə çatdırılıb ki, məktəbin ərazisi 1 hektardır. Binanın ümumi sahəsi 820 kvadratmetrə yaxındır. Məktəb 12 sinif otağından, 60 nəfərlik akt zalından və kitabxanadan ibarətdir.

Bildirildi ki, dördmərtəbəli binanın fasadının ətrafdakı fərdi evlərə uyğunlaşdırılacağı nəzərdə tutulur. Fasadda fərdi evlərdə olduğu kimi, dekorativ təbii daşlardan istifadə ediləcək. Məktəbdə müasir standartlara uyğun idman meydançası qurulacaq, həyətyanı sahə abadlaşdırılacaq.

Dövlət başçısı məktəb binasının əsaslı təmirinə başlanılması barədə tapşırıq verdi.





## Fərdi evdə aparılmış təmir-bərpa işləri ilə tanışlıq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tərtər rayonunun Suqovuşan qəsəbəsində fərdi evdə aparılmış təmir-bərpa işləri ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına və birinci xanıma görülən işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, 44 günlük Vətən müharibəsi zamanı, hərbi əməliyyatlar nəticəsində Tərtər rayonunun işğaldan azad edilmiş Suqovuşan qəsəbəsində 16 fərdi ev qismən yararsız vəziyyətə düşmüşdür. Bu evlərdən biri əsaslı təmir olunub.

Təmir olunan evin ümumi yaşayış sahəsi 92 kvadratmetrdir. Layihəyə əsasən, ev 3 otaq, mətbəx və 2 sanitar qovşağından ibarətdir. Tikinti altında olan sahə isə 148 kvadratmetr təşkil edir. Fasadın əsas hissəsi dekorativ təbii daşla üzlənib ki, bu da evin və yerləşdiyi ərazinin ahəngini tamamlayır. Fasadın qalan hissəsində isə suyadavamlı boya materialından istifadə olunub. Evin damı metal kirəmitlə örtülüb, terrasa keramika döşənib, tavanı isə taxta materialdan hazırlanıb.

Evin otaqları yüksək səviyyədə və müasir dizaynla bərpa olunub. Həyətyanı sahə abadlaşdırılıb, ərazidə ağaclar əkilib. Fərdi evlərin yerləşdiyi məhəlləyə işıq və su xətləri çəkilib, yola asfalt örtüyü döşənib.













# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşanda olublar

## İkimərtəbəli yeni məscidin təməli qoyulub










Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tərtər rayonunun Suqovuşan qəsəbəsində yeni tikiləcək məscidin təməlini qoyublar.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına və birinci xanıma qəsəbədə inşa olunacaq məscidin layihəsi barədə məlumat verdi.

Bildirildi ki, ümumi ərazisi 0,6 hektar olan kompleksə məscid binası, köməkçi bina, dəstəmaz otağı və avtodayanacaq daxildir. İki mərtəbədən ibarət olacaq məscid binasının uzunluğu 16,8 metr, eni isə 11,2 metr təşkil edəcək. Burada kişilər və qadınlar üçün ibadət zalının olması planlaşdırılır. Layihəyə əsasən, məsciddə eyni vaxtda 110 nəfərin ibadət etməsi üçün şərait yaradılacaq.

Dövlət başçısı və birinci xanım məscidin təməlini qoydular.

Qeyd edək ki, işğal dövründə vandalizmə məruz qalan mədəni-dini obyektlər sırasında islam dini abidələri - məscidlər, türbələr və digər inanc yerləri mütləq əksəriyyət təşkil edir. Qarabağda rəsmi fəaliyyət göstərmiş 67 məscidin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. İşğaldan azad olunmuş ərazilərimizdə hazırda geniş quruculuq işləri aparılır, yeni məscidlər tikilir. Onlardan biri də Suqovuşan qəsəbəsində təməli qoyulan məsciddir.

## Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışı olub



Tərtər rayonunun Suqovuşan qəsəbəsində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov dövlət başçısına raport verdi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əvvəlcə sıra meydanında düzülmüş döyüş texnikalarına baxdılar. Silahlı Qüvvələrin Ali Baş Komandanına hərbi hissədə yaradılan şərait bərədə məlumat verildi. Bildirildi ki, hərbi hissənin ərazisində nəzarət-buraxılış məntəqəsi, qərargah binaları, əsgər yataqxanaları, tibb məntəqəsi, qazanxanalar, mağaza, 174 nəfərlik yeməkxana binası yaradılıb. Hərbi hissənin qərargah binasında hərbçilər üçün bütün zəruri avadanlıqla təchiz edilən iş otaqları var. Əsgər yeməkxanası da müasir səviyyədədir.

Dövlət başçısı və birinci xanım hərbi hissənin əsgər yeməkxanasında yaradılan şəraitlə tanış oldular. Qeyd edək ki, burada hərbi qulluqçulara xidmətlərini yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb.

İşğaldan azad edilən ərazilərdə hərbi hissələrin açılması, ən müasir texnikalarla təchizatı onu göstərir ki, Azərbaycan hərbi təhlükəsizliyini xüsusi diqqətdə saxlayır. Bunun üçün kifayət qədər imkan, ən əsası siyasi iradə var. Digər tərəfdən, cəmiyyət də dövlətin bu istiqamət üzrə siyasətini dəstəkləyir və birmənalı şəkildə dövlətin yanında olduğunu nümayiş etdirir.




















# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşanda olublar

## Prezident İlham Əliyev turizm kompleksinin təməlini qoyub






Tərtər rayonunun Suqovuşan qəsəbəsində Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Azərbaycan Dövlət Turizm Agentliyinin sədri, Azərbaycan Qış İdman Növləri Federasiyasının prezidenti Fuad Nağıyev dövlət başçısına və birinci xanıma kompleksin layihəsi barədə məlumat verdi.

Bildirildi ki, ərazinin minalardan təmizlənməsindən, dağıdılmış tikililərin qalıqlarının yığışdırılmasından, çoxillik bitkilərin budanmasından sonra burada abadlıq işlərinə başlanılacaq və əraziyə uyğun bitkilər əkiləcək.

Diqqətə çatdırıldı ki, ötən əsrin 70-ci illərində Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə tikilən Suqovuşan Su Anbarı ətrafında yaradılacaq kompleksdə sahilboyu gəzinti cığırları salınacaq, oturacaqlar, söhbətgahlar quraşdırılacaq. Həmçinin burada turistlərə xidmət göstərəcək 40 nəqliyyat vasitəsi üçün avtodayanacaq, turizm məlumat mərkəzi və ictimai iaşə obyekti yaradılacaq.

Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva turizm kompleksində istifadə olunacaq xüsusi maşınlara baxdılar.

Prezident İlham Əliyev kompleksin təməlini qoydu.

Sonra dövlət başçısı və birinci xanım kompleksin ərazisində ağac əkdilər.

Qeyd edək ki, Suqovuşan Turizm Kompleksində işlər cari ilin sonunadək başa çatdırılacaq və növbəti mövsümdə kompleks turistlərə xidmət göstərəcək. Görülən işlər sübut edir ki, çox füsunkar, təkrarolunmaz təbiəti olan və tarixi abidələrlə zəngin Qarabağ bölgəsi tezliklə Azərbaycanın əsas turizm zonalarından birinə çevriləcək.





## Avarçəkmə üzrə ilk təlim-məşq toplantısının rəsmi açılışı






Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Tərtər rayonunun Suqovuşan qəsəbəsində təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər. Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının prezidenti Vüqar Əhmədov dövlət başçısına və birinci xanıma federasiyanın gələcək planları barədə məlumat verdi və videoçarx nümayiş etdirildi.

Diqqətə çatdırıldı ki, avarçəkmə idman növü ilə Azərbaycanda 1930-cu illərdən məşğul olunmağa başlanılıb. Sonralar ənənəvi idman növlərindən birinə çevrilib. Ümummilli Lider Heydər Əliyevin diqqəti sayəsində Azərbaycanda 11 avarçəkmə klubu fəaliyyət göstərirdi. Müstəqilliyin ilk illərində Mingəçevirdəki baza baxımsız hala düşsə də, dövlət başçısının tapşırığı ilə 2010-cu ildə bu baza ən yüksək standartlara cavab verən səviyyəyə çatdırılıb. Hazırda əsas məqsəd ölkəmizdə avarçəkmə idman növünün coğrafiyasını genişləndirmək və gəncləri bu idman növünə cəlb etməkdir.

Dövlət başçısına və birinci xanıma avarçəkmə yarışlarında istifadə olunan qayıqlarla bağlı məlumat verildi. Bildirildi ki, avarçəkmənin 3 əsas növü var - akademik, kayak və kanoe. Akademik avarçəkmədə idmançılar 1, 2, 4 və 8 nəfərlik qayıqlarda mübarizə aparırlar. Yarış iştirakçıları qayığı geriyə hərəkət etdirirlər. Burada qayıq həm əl, həm ayaq, həm də bədən gücü ilə və sinxron şəkildə hərəkət etdirilir. Azərbaycan Prezidenti təlim-məşq toplantısının rəsmi açılışını bildirən düyməni sıxandan sonra qarşı tərəfdəki metal konstruksiyadan "QARABAĞ AZƏRBAYCANDIR!" yazısı əks olunmuş banner açıldı, səmaya 7 min hava şarı buraxıldı və ardınca idmançılar məşq prosesinə başladılar.



Dövlət başçısı və birinci xanım məşq prosesini və bayraq şousunu izlədilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xatirə hədiyyəsini imzaladı və Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasına təqdim etdi.

Xüsusi vurğulanmalıdır ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Suqovuşan qəsəbəsinə bu səfəri işğaldan azad olunan ərazilərdə ilk idman tədbirinin təşkili ilə də yadda qaldı.






## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşanda olublar

# ZƏFƏRİMİZ hər birimiz üçün qürur mənbəyidir

## Prezident İlham Əliyev Suqovuşandan Azərbaycan xalqını təbrik etdi

- Əziz bacılar və qardaşlar.

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

İkinci dəfədir ki, tarixi Zəferimizdən sonra biz Novruz bayramını doğma Qarabağ diyarında qeyd edirik. Bilirəm, hər birimiz, xüsusilə keçmiş məcburi köçkünlər hər dəfə bayram ərəfəsində və bayram günlərində deyirdik ki, İnşallah, gələn il azad edilmiş torpaqlarda, Qarabağda Novruz bayramını qeyd edəcəyik və artıq bu, reallıqdır. İkinci dəfədir ki, bu gözəl bahar bayramını biz işğaldan azad edilmiş torpaqlarda qeyd edirik. Bu gün mən Novruz tonqalını burada - Suqovuşanda qaladım, qədim Azərbaycan diyarı olan Suqovuşanda. Keçən il isə Novruz bayramını mən Şuşa şəhərində, hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etmişdim və Azərbaycan xalqına müraciət etmişdim. Şadam və xoşbəxtəm ki, artıq bu, bir ənənəyə çevrilib və Novruz bayramını biz burada, doğma Qarabağ diyarında qeyd edirik.







Suqovuşan qədim Azərbaycanın tarixi yeridir. Azərbaycan xalqı bu ərazilərdə əsrlər boyu yaşayıb. Ancaq 1923-cü ildə doğma Qarabağ diyarımızda qanunsuz və heç bir əsası olmadan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır. Qarabağın gözəl, səfalı yerləri qondarma quruma daxil edilmişdi, o cümlədən Şuşa şəhəri və Suqovuşan qəsəbəsi. Bu, xalqımıza qarşı növbəti ədalətsizlik idi, növbəti düşmənçilik idi. Çünki Qarabağ, onun tarixi Azərbaycan xalqının adı ilə bağlıdır. Azərbaycan xalqı Qarabağda əsrlər boyu yaşayıb. Sadəcə olaraq, siyasi məqsədlər naminə uzun illər, sovet dövründə burada qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti fəaliyyət göstərirdi. Bildiyiniz kimi, sonra ermənilər xalqımıza qarşı işğalçılıq siyasətinə əl atdılar və 30 ilə yaxın müddətdə bizim doğma Qarabağımız və Şərqi Zəngəzurun bir hissəsi ermənilərin əlində idi. Buna son qoyulmalı idi və son qoyuldu. Biz gördük ki, heç bir danışıqlar, heç bir siyasi addımlar bizi məqsədimizə yaxınlaşdırmır. Biz görürdük və bilirdik, ancaq güclü, daha iradəli olmalıyıq ki, öz haqqımızı qoruyaq, tarixi ədaləti bərpa edək. Azərbaycan dövləti, Azərbaycan Ordusu, bütün Silahlı Qüvvələrimiz bu tarixi missiyanı 2020-ci ildə yerinə yetirdi. Biz döyüşərək, qan tökərək, şəhidlər verərək doğma diyarımızı erməni işğalından azad etdik və Qarabağa qayıtdıq. Biz artıq burada yerləşmişik, biz buraya qayıtmışıq, doğma diyarımıza qayıtmışıq. Bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində çox genişmiqyaslı abadlıq işləri aparılır, şəhərlər yenidən qurulur, kəndlər yenidən salınır. Əlbəttə ki, bizim əsas vəzifəmiz keçmiş məcburi köçkünləri tezliklə bu doğma diyara qaytarmaqdır.

Abadlıq və quruculuq işləri, o cümlədən Suqovuşan qəsəbəsində də geniş vüsət alıbdır. Bu gün burada bir neçə tədbirdə iştirak etmişəm, o cümlədən yaşayış binalarının bərpası, turizm zonalarının yaradılması. Bütövlükdə həm Qarabağda, həm Şərqi Zəngəzurda quruculuq, abadlıq işləri planlı şəkildə aparılır. Biz elə etməliyik ki, qısa müddət ərzində ancaq böyük səmərə ilə və böyük keyfiyyətlə 10 min kvadratkilometrdən çox olan ərazini yenidən quraq. Çünki mənfur düşmən işğal dövründə bütün şəhərlərimizi, kəndlərimizi yerləyeksan edib, bütün tarixi abidələrimizi dağıdıb, təhqir edib. Biz isə qurub-yaradan xalqıq. Müharibədən cəmi bir ildən bir qədər çox vaxt keçməsinə baxmayaraq, biz artıq qurub-yaradırıq. Əminəm ki, biz bütün planlara, nəzərdə tutulmuş bütün məqsədlərə nail olacağıq və nail oluruq. Budur bugünkü Azərbaycanın reallıqları. Bugünkü güclü Azərbaycan bütün bu işləri görməyə qadirdir. Siyasi iradə var, iqtisadi güc var, xalqımızın səfərbərliyi var, milli həmrəylik ən yüksək zirvədədir və əlbəttə ki, şanlı tarixi Zəfərimiz hər birimiz üçün qürur mənbəyidir. Biz haqlı olaraq fəxr edirik ki, müzəffər dövlətin vətəndaşlarıyıq, ordumuzla fəxr edirik, insanlarımızla fəxr edirik. Bizə bu xoşbəxtliyi yaşadan gənclərimizlə fəxr edirik və əbədi fəxr edəcəyik. Biz Qarabağa və Şərqi Zəngəzura əbədi qayıtmışıq və burada, tarixi torpaqlarımızda bundan sonra əbədi yaşayacağıq.

Bu gün bu gözəl mənzərəli yerlərə baxdıqca bir daha görürəm, diyarımız nə qədər gözəldir, dağlarımız nə qədər əzəmətlidir. Bütün bu tarixi gözəlliyə biz gözəllik qatacağıq, zövq qatacağıq və burada azərbaycanlılar rahat yaşayacaqlar, sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayacaqlar. Sülhün və təhlükəsizliyin təminatçısı Azərbaycan dövlətidir və Azərbaycan Silahlı Qüvvələridir.

Mən xoşbəxt adamam ki, əziz, doğma xalqıma işğaldan azad edilmiş Qarabağdan Novruz bayramı münasibətilə təbriklərimi çatdırıram. Bu əziz gündə bir daha bütün Azərbaycan xalqını gözəl bayram münasibətilə təbrik etmək istəyirəm. Bir daha demək istəyirəm, bundan sonra da var gücümlə çalışacağam ki, Azərbaycan daim sürətlə inkişaf etsin, yüksələn xətlə getsin və qarşıda duran bütün vəzifələr icra edilsin. Qarabağ Azərbaycandır!



# Prezidentdən vətəndaş məmnunluğunun təmin olunmasına mühüm töhfə

## İlham Əliyev Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılışında iştirak edib



Əvvəli 1-ci səh.

Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev dövlət başçısına mərkəzdə yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev küçəsi, 79 ünvanında yerləşən beşmərtəbəli binada vətəndaşların rahat müraciət etmələri və onların müraciətlərinə baxılması üçün zəruri şərait yaradılıb.

Mərkəzdə gözləmə zalları, qəbulların aparılacağı xidməti otaqlar, kollektiv qəbullar üçün nəzərdə tutulan müxtəlif ölçülü zallar, həkim, psixoloq, hüquq məsləhətçisi, ana və uşaq otaqları vardır.

Vətəndaş Qəbulu Mərkəzində tətbiq olunan yeniliklərdən biri də Çağrı Mərkəzinin istifadəyə verilməsidir. Vətəndaşlar 1111 nömrəsinə zəng edərək onları narahat edən məsələlər barədə məlumat verə biləcəklər. Bu müraciətlər operatorlar tərəfindən dərhal qəbul olunaraq vətəndaşlara müvafiq izahat veriləcəkdir. Mərkəzdə tətbiq olunan daha bir yenilik isə ölkənin müxtəlif bölgələri ilə birbaşa videokonfranslar keçirilməsi imkanının yaradılmasıdır. Burada ölkənin bütün şəhər və rayon icra hakimiyyətlərinin vətəndaş qəbulu otaqları və Prezident Administrasiyasının müvafiq struktur bölməsi ilə paralel olaraq əlaqə saxlamaq imkanı verən xüsusi rabitə sistemi vardır.

Bu mərkəzin istifadəyə verilməsi ictimai nəzarətin mühüm mexanizmlərindən biri olan vətəndaş müraciətlərinə daha operativ baxılmasına şərait yaradacaq. Mərkəzdə həm ilk dəfə qəbula gələn, həm də əvvəlcədən qəbula yazılan vətəndaşlar üçün iki qeydiyyat köşkü quraşdırılıb. Vətəndaşlar şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçib müvafiq ardıcıllığa riayət etməklə qəbula yazıla və müraciət edə biləcəklər. Burada fəaliyyət göstərəcək könüllülər də bu prosesdə vətəndaşlara yardımçı olacaqlar.

Bir sözlə, vətəndaş məmnunluğunun təmin edilməsi, dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə daha yüksək pilləyə qaldırılması, vətəndaşların qəbulunda şəffaflığın artırılması məqsədilə yaradılan mərkəzdə bu işin təşkili üçün hər cür şərait vardır.

Vətəndaşlar qəbulla yanaşı, Prezident Sarayına ənənəvi qaydada, yaxud "president.az" rəsmi səhifəsi vasitəsilə elektron məktubla da müraciət edə bilərlər.

Prezident Administrasiyasına daxil olan vətəndaş müraciətlərinin hər biri hərtərəfli təhlil olunur və qaldırılan bütün məsələlərə operativ qaydada baxılır.

Xatırladaq ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın ölkədə epidemioloji vəziyyətin yaxşılaşması ilə əlaqədar xüsusi karantin rejiminin yumşaldılması barədə qəbul etdiyi qərara əsasən, dövlət orqanlarında vətəndaşların qrup halında və fərdi qaydada qəbul edilməsinə artıq icazə verilib. Hazırda mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən vətəndaşların səyyar qəbulları həyata keçirilməkdədir. Eyni zamanda Prezident Administrasiyasının struktur bölmələrinin rəhbərləri tərəfindən də vətəndaşlar qəbul ediləcəklər.

Qeyd edək ki, ötən il Prezident Administrasiyasına daxil olan müraciətlərin 60 faizi ərizələrdən, 39 faizi şikayətlərdən və təkliflərdən ibarət olub. Müraciətlər əsasən sosial müdafiə, İkinci Qarabağ müharibəsi və onun nəticələri, hüquq-mühafizə orqanlarının, məhkəmələrin fəaliyyəti, əfv məsələləri, səhiyyə xidmətləri, torpaq məsələləri və işğaldan azad edilmiş ərazilərlə bağlı olub. Bu müraciətlərə operativ baxılaraq müvafiq kömək göstərildiyinə görə dövlət başçısı İlham Əliyevin ünvanına həmin dövrdə 30 minə yaxın minnətdarlıq məktubu daxil olub.

**AZƏRTAC**





























# Pakistanın göstərdiyi dəstəyi Azərbaycan xalqı yüksək qiymətləndirir

## Pakistan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Arif Alviyə



Hörmətli cənab Prezident!

Pakistan İslam Respublikasının milli bayramı - Pakistan Günü münasibətilə Sizi və qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

Dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Pakistan əlaqələrinin bugünkü yüksək səviyyəsi məmnunluq doğurur. Ölkələrimiz arasında çoxsaylı qarşılıqlı səfərlər, imzalanan sənədlər və əldə olunan razılaşmalar əməkdaşlığımızın inkişafında mühüm rol oynayır. Biz ortaq mənəvi dəyərlərimizdən və xalqlarımızın iradəsindən güc alan bu birliyimizi daha da möhkəmləndirmək əzmindəyik.

Pakistanın beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi daimi dəstəyə və ədalətli mövqeyinə görə Sizə təşəkkür edirəm. Qardaş ölkənizin Azərbaycana göstərdiyi bu dəstəyi xalqımız yüksək qiymətləndirir.

Keçən il Aşqabadda Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü, apardığımız fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram. Əminəm ki, dövlətlərarası münasibətlərimizin və strateji tərəfdaşlığımızın genişləndirilməsi sahəsində atdığımız addımlar, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımız bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2022-ci il*

# Yunanıstan Respublikasının Prezidenti zati-aliləri xanım Katerina Sakellaropuluya

Hörmətli xanım Prezident

Yunanıstan Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından səmimi təbriklərimi çatdırıram.

Ümidvaram ki, xalqlarımızın mənafeləri naminə Azərbaycan ilə Yunanıstan arasındakı münasibətlərin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2022-ci il*

# "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № I, maddə 23) 9.6-cı maddəsində "Silahlı Qüvvələrin dinc, real təhdid, səfərbərlik və müharibə (silahlı münaqişə)" sözləri "Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üçün ayrılıqda dinc və müharibə (silahlı münaqişə)" sözləri ilə, "tələbat" sözü "təminat" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 fevral 2022-ci il*

# Azərbaycan və Avropa İttifaqı arasında münasibətlər uğurla inkişaf edir

## Avropa İttifaqı Şurasının Prezidenti zati-aliləri cənab Şarl Mişelə



Hörmətli cənab Mişel!

Avropa İttifaqı Şurasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm.

Azərbaycan və Avropa İttifaqı arasında münasibətlər uğurla inkişaf edir. Ötən il Sizin Azərbaycana səfəriniz əsnasında apardığımız müzakirələri, Brüsseldə keçirdiyimiz görüşü məmnuniyyətlə xatırlayıram.

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması, Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması və nəqliyyat-kommunikasiya bağlantılarının qurulması prosesinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndirirəm.

İşğaldan azad edilmiş ərazilərimizin minalardan təmizlənməsinə xidmət edən humanitar layihələrə Avropa İttifaqının dəstək vermək niyyətini təqdir edirik.

Azərbaycan və Avropa İttifaqı arasında enerji, təhlükəsizlik, nəqliyyat və digər sahələrdə fəal dialoq mövcuddur.

Azərbaycan və Avropa İttifaqı arasında xüsusilə enerji sahəsində əməkdaşlıq strateji xarakter daşıyır və bu ilin fevral ayında Bakıda keçirilmiş Cənub Qaz Dəhlizi Məşvərət Şurasının VIII toplantısı enerji sahəsində gələcək birgə fəaliyyətimiz üçün yeni imkanlar açmışdır.

Ümidvaram ki, Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzrə danışıqlar tezliklə başa çatdırılacaq və bu mühüm sənədin imzalanması ilə əməkdaşlığımız keyfiyyətcə daha yeni mərhələyə qədəm qoyacaqdır.

İnanıram ki, Azərbaycan və Avropa İttifaqı arasında əlaqələrin daha da genişlənməsi və əməkdaşlığımızın hərtərəfli inkişafı istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 mart 2022-ci il*

# Azərbaycan-Pakistan əməkdaşlıq münasibətləri möhkəmlənir

## Pakistan İslam Respublikasının Baş naziri zati-aliləri cənab İmran Xana



Hörmətli cənab Baş nazir!

23 Mart - Pakistan Günü münasibətilə Sizə və qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Qardaş xalqlarımızın ortaq tarixi, dini köklərindən qaynaqlanan və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş Azərbaycan-Pakistan əlaqələrinin mövcud vəziyyəti bizi sevindirir. Biz qarşılıqlı etimad üzərində qurulmuş münasibətlərimizin inkişafına böyük əhəmiyyət veririk. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə göstərdiyi dəstəyi xüsusi qeyd etmək istəyirəm.

Vətən müharibəsi dövründə Pakistanın sərgilədiyi prinsipial mövqeyi, ölkəmizin haqq işinə verdiyi siyasi-mənəvi dəstəyi Azərbaycan xalqı daim yüksək qiymətləndirir. Biz işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma və bərpa işlərində Pakistan şirkətlərini də görmək istərdik.

Bu gün iqtisadiyyat, ticarət, enerji, nəqliyyat, turizm, təhsil və hərbi-texniki sahələrdə Azərbaycan-Pakistan əməkdaşlıq münasibətlərinin genişləndirilməsi üçün əlverişli şərait mövcuddur. Əminəm ki, bu imkanlardan istifadə edərək dövlətlərarası münasibətlərimiz, həm ikitərəfli, həm də çoxtərəfli əsasda səmərəli əməkdaşlığımız birgə səylərimizlə bundan sonra da müvəffəqiyyətlə davam edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2022-ci il*

# Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin 30 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2022-ci ildə Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin yaradılmasının 30 ili tamam olur.

Milli Olimpiya Komitəsi təsis olunduğu vaxtdan ölkədə idmanın dinamik inkişafı, Olimpiya ideallarının bərqərar olması və təşviqi üçün məqsədyönlü, ardıcıl fəaliyyət göstərmişdir. Ötən müddət ərzində Azərbaycanın idman infrastrukturunun yenilənərək ən müasir standartlara cavab verən səviyyəyə gətirilməsində, idmanın kütləviliyinin artırılmasında və sağlam həyat tərzinin təbliğində Milli Olimpiya Komitəsinin mühüm xidmətləri olmuşdur. İdmançılarımız Olimpiya oyunlarında ölkəmizi ləyaqətlə təmsil etmiş, yüksək nəticələr qazanmış və Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonra Olimpiya oyunlarında əldə olunan medalların sayını 53-ə çatdıraraq Azərbaycanın idman şöhrətini artırmışlar.

Milli Olimpiya Komitəsinin mötəbər idman yarışlarının təşkili istiqamətində təqdirəlayiq fəaliyyəti sayəsində ölkəmizdə 2015-ci ildə I Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları və 2019-cu ildə Avropa Yeniyetmələrinin Olimpiya Festivalı böyük uğurla keçirilmişdir. Əldə edilmiş nailiyyətlər beynəlxalq miqyasda əks-səda doğurmuş, Azərbaycanı dünyada idman ölkəsi kimi tanıtmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Milli Olimpiya Komitəsinin təsis olunmasının 30 illiyinin ölkənin ictimai həyatında əhəmiyyətini nəzərə alaraq, habelə Azərbaycan Respublikasında Olimpiya Hərəkatının daha da genişləndirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi ilə birlikdə Milli Olimpiya Komitəsinin 30 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 mart 2022-ci il*

# "Beynəlxalq Humanitar Yardım üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Beynəlxalq Humanitar Yardım üzrə Dövlət Komissiyası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Azərbaycan Respublikasının ərazisinə daxil olan humanitar yüklərin qəbul edilməsi, uçotunun aparılması, təyinat yerinə çatdırılması, saxlanılması, mühafizəsi və bölgüsü Qaydaları"nı dörd ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. "Beynəlxalq Humanitar və Texniki Yardım üzrə Respublika Komissiyasının Əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 9 mart tarixli 164 nömrəli Sərəncamı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 5-6, maddə 111; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 97; 2010, № 2, maddə 80) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 mart 2022-ci il*

# "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 485-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 955-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 yanvar tarixli 1794 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 485-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikası Qanununun 9.6-cı maddəsinə uyğun olaraq, Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üçün ayrılıqda dinc və müharibə (silahlı münaqişə) dövrlərində maddi-texniki vasitələrlə təmin edilməsi qaydasını və təminat normasını altı ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 955-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 yanvar tarixli 1794 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 50) 1.3-cü bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 mart 2022-ci il*

# Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında əməkdaşlıq daha da genişlənir

Martın 22-də Əbu-Dabinin vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Məhəmməd bin Zayed Əl Nahyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı zamanı Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu, xüsusilə iqtisadi, ticari, enerji və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Söhbət əsnasında tərəflər Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin sərmayəsi ilə Azərbaycanda bu yaxınlarda əsası qoyulmuş 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyası layihəsi ilə bağlı bir-birini təbrik etdilər.

Məhəmməd bin Zayed Əl Nahyan BƏƏ-nin bərpaolunan enerji sahəsində Azərbaycan ilə strateji əməkdaşlığı inkişaf etdirmək və təqdim olunan layihələri dəstəkləməkdə maraqlı olduğunu ifadə etdi.

Dövlətimizin başçısı bərpaolunan enerji sahəsində ölkəmizin böyük potensialının olduğunu qeyd edərək "Masdar" şirkətinin sərmayəsi ilə tikilməkdə olan 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının əhəmiyyətini vurğuladı.

Söhbət zamanı həmçinin Ukraynada baş verən hadisələr fonunda dünya enerji bazarında sabitliyin təmin olunması, beynəlxalq və regional gündəliyə aid olan və qarşılıqlı maraq doğuran məsələlər barəsində fikir mübadiləsi aparıldı.

***Prezidentin Mətbuat Xidməti***

# İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı hədləri, habelə 2022-ci ilin sonuna hədəflənən icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı həddinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 24 dekabr tarixli 440-VIQD nömrəli Qanununun tətbiqi, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanında dəyişiklik edilməsi və "İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin və dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 dekabr tarixli 1568 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı həddi 20,0 faiz, 2022-ci ilin sonuna isə 27,5 faiz müəyyən edilsin.

2. Dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin ortamüddətli dövr üzrə hədəflənən yuxarı həddi 20,0 faiz müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 mart 2022-ci il*

# Milli Məclisin Sədri Qazaxıstana işgüzar səfərə gedib

**Martın 28-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Qazaxıstan Respublikasının Almatı şəhərinə işgüzar səfərə gedib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, səfərdə məqsəd MDB Parlament Assambleyasının (PA) 30 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etməkdir.

Almatı Beynəlxalq Aeroportunda nümayəndə heyətini MDB PA-nın Baş katibi Dmitri Kobitski, Qazaxıstan Parlamentinin deputatları, ölkəmizin Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclis Sədrinin MDB PA-nın Şura iclasında çıxışı və iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşləri də nəzərdə tutulur.

İşgüzar səfər martın 29-da başa çatacaq.





# *Maulen AŞIMBAYEV:* "Azərbaycan Qazaxıstan üçün çox mühüm və etibarlı tərəfdaşdır"

Martın 28-də Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstan Respublikasına işgüzar səfəri çərçivəsində Almatı şəhərində bu ölkənin Parlamenti Senatının Sədri Maulen Aşımbayev ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Maulen Aşımbayev ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini qeyd edib. Azərbaycanın Qazaxıstan üçün çox mühüm və etibarlı tərəfdaş olduğunu diqqətə çatdıran M.Aşımbayev xalqlarımızın oxşar tarixə malik olduğunu, müstəqillik illərində münasibətlərin böyük inkişaf yolu keçdiyini vurğulayıb.

İki ölkə arasında münasibətlərin inkişafına qanunverici orqanların özünəməxsus töhfələr verdiyini söyləyən Qazaxıstan Parlamenti Senatının Sədri parlamentlər arasında əlaqələrin inkişafının qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi baxımından əhəmiyyətli olduğunu bildirib.

Azərbaycan xalqını Prezident İlham Əliyevin siyasi iradəsi və qətiyyəti sayəsində Vətən müharibəsində qazandığı şanlı Qələbə və ərazi bütövlüyünü bərpa etməsi münasibətilə təbrik edən qazaxıstanlı parlamentari bu Zəfərin bütün türk dünyasının qələbəsi olduğunu bildirib. Senatın Sədri həmçinin işğaldan azad olunmuş ərazilərin bərpası məsələsində Qazaxıstanın istənilən dəstəyi göstərməyə hazır olduğunu qeyd edib.

Görüşdə Maulen Aşımbayev bu ilin yanvarında ölkəsində baş vermiş faciəvi hadisələr barədə məlumat verərək, göstərilən dəstəyə görə Azərbaycan xalqına minnətdarlığını ifadə edib.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstan Respublikası Parlamenti Senatının Sədri ilə bundan əvvəl keçirdiyi görüşləri xatırladaraq, aparılan danışıqların qanunverici orqanlarımız arasında münasibətlərin dərinləşməsinə töhfə verdiyini bildirib. O, parlamentlərin ölkələrimiz arasında münasibətlərdə körpü rolunu oynadığını qeyd edərək, qanunverici orqanlarımız arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayıb. S.Qafarova Azərbaycan ilə Qazaxıstan arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşdirilməsi və möhkəmləndirilməsi üçün böyük imkanlar yaradan TÜRKPA çərçivəsində qarşılıqlı fəaliyyəti xüsusi qeyd edib.

Milli Məclisin Sədri deyib ki, xalqlarımızı ortaq tarix, mədəni və mənəvi dəyərlər birləşdirir. Müstəqillik illərində isə ölkələrimiz arasında münasibətlər daha da dərinləşib. Onun sözlərinə görə, hazırda münasibətlərin hərtərəfli inkişafına dair möhkəm hüquqi baza mövcuddur.



Görüşdə Sahibə Qafarova Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Qələbə və regionda yaranmış yeni reallıq barədə də məlumat verərək bildirib ki, Azərbaycan bu qələbə sayəsində ərazi bütövlüyünü bərpa edib və işğala son qoyub. Artıq Ermənistanla Azərbaycan arasında münaqişə mövcud deyil. Ölkəmiz hazırda işğaldan azad etdiyi ərazilərinin bərpasını həyata keçirir.

Milli Məclisin Sədri vurğulayıb ki, Azərbaycan regionda daimi sülh və sabitliyin təmin olunmasını istəyir. Ölkəmizin bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşdığını vurğulayan Milli Məclisin Sədri ölkəmizin özünün də ərazi bütövlüyünə və suverenliyinə hörmət olunmasını tələb etdiyini vurğulayıb.

Rəsmi İrəvanın yenə də təxribatlarını davam etdirdiyini diqqətə çatdıran Sahibə Qafarovanın sözlərinə görə, üçtərəfli Bəyanatın dördüncü bəndinə əsasən, Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan ərazilərindən tam olaraq çıxarılmalıdır. Lakin təəssüf ki, onlar bu günə qədər bu öhdəliklərini yerinə yetirməyiblər. Əksinə, son dövrlərdə qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Azərbaycan Ordusunun bölmələrinə qarşı təxribatları daha da artırıblar. Milli Məclisin Sədri deyib ki, Ermənistan regionda yeni reallığı düzgün qiymətləndirməli, sülh və sabitliyin bərqərar olması istiqamətində üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir.

Sahibə Qafarova xatırladıb ki, bu ilin yanvar ayında Qazaxıstanda baş verən faciəvi hadisələr Azərbaycanda da narahatlıqla izlənilib və həmin hadisələrin artıq geridə qaldığını, qazax xalqının bütün çətinliklərin öhdəsindən gələcəyinə inamını ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycandakı dini konfessiyaların rəhbərləri 31 Mart soyqırımı ilə əlaqədar dünya ictimaiyyətinə müraciət ünvanlayıblar

Azərbaycandakı dini konfessiyaların rəhbərləri 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar dünya ictimaiyyətinə, dini liderlərə, parlamentlərə və beynəlxalq təşkilatlara müraciət ünvanlayıblar.

AZƏRTAC Qafqaz Müsəlmanları İdarəsinin Mətbuat xidmətinə istinadla müraciəti təqdim edir. "Azərbaycan Respublikasının vətəndaşlarının və dünyada yaşayan milyonlarla azərbaycanlıların, tarixdə baş vermiş faciələrə biganə qalmayan insanların iradəsini ifadə edərək, 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ərəfəsində müraciətimizi dünya ictimaiyyətinin, dini liderlərin, parlamentlər və beynəlxalq təşkilatların diqqətinə çatdırmağı özümüzə borc bilirik.

Bəşəriyyətə nazil olmuş müqəddəs kitablarda əksini tapan ali həqiqətlərdən biri də budur ki, Uca Rəbbin yaratdığı bir insanı belə qətlə yetirmək cəmi bəşəriyyəti məhv etmək qədər ağır cinayətdir. Bəşəriyyətin qan yaddaşında həkk olunmuş milli, irqi, dini mənsubiyyətinə görə törədilmiş soyqırımları insanlığa qarşı ən böyük və bağışlanılmaz günahlardandır. Bu cinayətə məruz qalan xalqlardan biri də Azərbaycan xalqıdır ki, bu dəhşətli həqiqəti dünya ictimaiyyəti bilməli, ədalətli qiymətini mütləq verməlidir.

XIX əsrin əvvəllərindən başlayaraq Qafqazda məqsədyönlü şəkildə kütləvi məskunlaşdırılan ermənilərin "böyük Ermənistan" xülyası ilə azərbaycanlılara və bu ərazilərdə tarixən yaşayan digər xalqlara qarşı kütləvi qətllərin və soyqırımı aktlarının reallaşması ilə nəticələndi. Bu qanlı tarix qısa fasilələrlə bütün XX əsr boyu dönə-dönə təkrarlandı. Erməni millətçilərinin xalqımıza qarşı iki əsrdən artıq davam edən ardıcıl təcavüz, etnik təmizləmə siyasəti, terror və vandalizm əməlləri səbəbindən azərbaycanlılar tarixən yaşadıqları indiki Ermənistan, daha sonra isə Qarabağ ərazisindəki doğma yurd-yuvalarından didərgin salındılar. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan tarixi ədaləti - dünya birliyi tərəfindən tanınan öz ərazi bütövlüyünü bərpa etdikdən sonra belə erməni ekstremistlərinin ölkəmizə qarşı revanşist ritorikası davam etməkdədir.

Tarix isə sübut edir ki, 1905-ci və 1918-ci illərdə erməni ekstremistləri tərəfindən Bakıda və bölgələrdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törədildi, on minlərlə dinc insan qətlə yetirildi, yaşayış məntəqələri, tarix və mədəniyyət abidələri, məscidlər, kilsələr və sinaqoqlar dağıdıldı. Təkcə Mart soyqırımı - 1918-ci ilin 30 mart - 3 aprel tarixləri arasında Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində - Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan, Dərbənd və digər ərazilərdə daşnak erməni və erməniəsilli bolşevik silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində on minlərlə azərbaycanlı qətlə yetirilib, itkin düşüb.

1918-1920-ci illərdə Şimali Azərbaycanda (Bakı, Şamaxı şəhəri, Şamaxı qəzası, Quba şəhəri, Quba qəzası, Lənkəran qəzası), Qərbi Azərbaycanda (Zəngəzur qəzası, İrəvan qəzası), Cənubi Azərbaycanda (Urmiya, Təbriz, Xoy, Səlmas şəhərləri) azərbaycanlı əhaliyə, Qubada və Dərbənddə yəhudi əhaliyə qarşı həyata keçirilən soyqırımı tarixi sənədlərdə öz əksini tapıb. 1918-ci il mart hadisələrində təkcə 3 gün ərzində Bakı şəhərində 12 mindən artıq azərbaycanlı soyqırımına məruz qalıb, şəhərin tarixi məscid və məbədlərinə təcavüz edilib; Şamaxı qəzasının 53 kəndində 8027 nəfər, Şamaxı şəhərində isə 8 min azərbaycanlı qətlə yetirilib, Qafqazda ən qədim tarixə malik Şamaxı Cümə məscidi yandırılıb. Quba şəhərində, Quba qəzasında, habelə Dərbənddə 16 mindən çox azərbaycanlının həyatına son qoyulub, 162 kənd dağıdılıb, 3 minə qədər yəhudi vəhşicəsinə qətlə yetirilib; Lənkəran qəzasında 2 min insan qətlə yetirilib; 1918-1920-ci illərdə Zəngəzur qəzasında 10068 azərbaycanlı öldürülüb və şikəst edilib; İrəvan quberniyasında 211 azərbaycanlı kəndi məhv edilib və əhalisi soyqırımına məruz qalıb. 1916-cı ildə bu ərazidə yaşamış 375 min nəfər azərbaycanlı əhalinin sayı ermənilərin etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində 1922-ci ildə 70 min nəfərə enmişdi. 1918-1920-ci illər ərzində Gürcüstanın azərbaycanlılar yaşayan Borçalı mahalında, Tiflisin azərbaycanlılar yaşayan tarixi məhəllələrində 5 minə yaxın azərbaycanlı məhv edilib. Həmçinin 1918-1920-ci illərdə Urmiya, Maku, Təbriz, Xoy və Səlmasda 120 mindən artıq azərbaycanlı qətlə yetirilib.

Tarixi arayış üçün bildirək ki, XX əsrin əvvəllərində erməni ekstremistlərinin kütləvi qırğın siyasətinin izləri Orta Asiyada, Türküstanda da mövcud olub. 1918-1922-ci ildə Özbəkistanın Fərqanə vadisində ermənilər tərəfindən 35 mindən artıq özbək müsəlmanın həyatına son qoyulması, Kokandın yandırılması, bir gün ərzində erməni daşnakları tərəfindən on mindən çox, Əndicanda isə dörd min yarımdan çox insanın məhv edilməsi, Qırğızıstanda Suzak, Bazar-Korgon kəndlərinin bütün sakinlərinin güllələnməsi, qırğının Cəlalabad sərhədlərinə qədər gedib çatması tarixi mənbələrdən məlumdur.

Azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti sovet hakimiyyəti dövründə də davam etdirildi. 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlı Zəngəzurdakı öz ata-baba yurdlarından deportasiya edildi və faktiki olaraq əzəli Azərbaycan ərazilərində yaradılmış Ermənistan monoetnik dövlətə çevrildi.

Ötən əsrin 80-ci illərinin ikinci yarısında SSRİ-nin rəhbər dairələrinə erməni lobbisinin təzyiqi və təhriki ilə erməni millətçilərinin xalqımıza qarşı təcavüz və etnik təmizləmə siyasətinin yeni dalğası başlandı. Azərbaycan xalqının görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından istifadə edən erməni şovinistləri 300 minə yaxın azərbaycanlının Ermənistandan amansızlıqla qovulmasını həyata keçirdilər. 1980-ci illərin sonu-1990-cı illərin əvvəllərində ərazilərimizin 20 faizi - Qarabağın dağlıq hissəsi və onun ətrafındakı yeddi rayon genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində işğala məruz qaldı, bir milyondan artıq azərbaycanlı doğma yurdlarından didərgin salındı. 1992-ci ildə erməni ekstremistlərinin Xocalıda, Ağdabanda, Daşaltıda həyata keçirdikləri soyqırımı aktları isə onların törətdikləri vəhşiliklərin kulminasiya nöqtəsi oldu. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı quldurlarının Xocalı şəhərinə qəfil silahlı basqın edərək oranın dinc, silahsız əhalisinə qarşı amansız kütləvi qırğın törətməsi, qocalar, uşaqlar, hamilə qadınlar da daxil olmaqla 613 nəfərin xüsusi qəddarlıqla qətlə yetirilməsi, 150 nəfərin itkin düşməsi, 1275 nəfərin əsir götürülərək ağır işgəncələrə məruz qoyulması, vəhşicəsinə qətlə yetirilmiş dinc sakinlərin meyitləri üzərində ağlasığmaz təhqiramiz hərəkətlər edilməsi, mahiyyəti etibarilə, Xocalı faciəsini Holokost, Gernika, Xatın, Srebrenitsa, Ruanda soyqırımları kimi insanlığa qarşı törədilmiş cinayətlərlə bir sıraya qoyur. Bütövlükdə 2 milyon azərbaycanlı ermənilər tərəfindən törədilmiş soyqırımı, etnik təmizləmə və deportasiya siyasətinin fəlakət və dəhşətlərini öz taleyində yaşayıb.

Bu arada xüsusilə qeyd edək ki, uzun illər ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın öz müxtəlifliyi ilə fərqlənən mədəni və mənəvi irsinə qarşı terror reallaşdırılıb. Ermənilər qəsb etdikləri Qarabağ torpaqlarında vandalizm aktları həyata keçirərək tarixi, dini, mədəniyyət abidələrimizi, ziyarətgah və qəbiristanlıqlarımızı, xristian və yəhudi məbədlərini məhv etdilər. Ermənilər Qarabağda tarixən mövcud olmuş qədim alban, müsəlman, pravoslav dini və mədəni irsini yoxa çıxarmaq yönündə məqsədyönlü iş apararaq mədəni-mənəvi irs nümunələrimizi ya məhv edib sıradan çıxarmış, ya da tarixini, mənşəyini saxtalaşdıraraq özününküləşdirib - erməniləşdirib, qriqoryanlaşdırıblar.

Bu gün Azərbaycanın rəsmi və ictimai dairələri Ermənistanın Azərbaycan ərazisində törətdiyi etnik təmizləmə, soyqırımı əməllərinə, vandalizm aktlarına dair təkzibolunmaz faktları beynəlxalq təşkilatların və ictimaiyyətin diqqətinə çatdırmaqdadır. Təəssüflər olsun ki, UNESCO azad olunmuş Qarabağ torpaqlarına araşdırıcı missiyasını yollamağı ləngidir, Avropa Parlamenti isə ikili yanaşma mövqeyindən çıxış edərək Qarabağda, guya, "erməni irsinin dağıdılması" barədə qərəzli qətnamə qəbul edir. Halbuki azad olunmuş ərazilərimizdə yeni erməni cinayəti faktları - kütləvi məzarlıqlar aşkarlanmaqdadır. Azərbaycan ərazilərində müharibə cinayəti - yandırılmış torpaq taktikasını tətbiq etmiş ermənilərin basdırdıqları saysız-hesabsız minalar səbəbindən günahsız insanlar bu gün də həyatlarını itirməkdə, əlilliyə düçar olmaqdadırlar.

Azərbaycanda əsrlər boyu sülh və əmin-amanlıq şəraitində yaşayan dini icmaların rəhbərləri kimi Cənubi Qafqaz bölgəsində bütün xalqlar, dinindən və dilindən asılı olmayaraq bütün insanlar arasında qarşılıqlı anlaşmanın, nəhayət, bərqərar edilməsinin tərəfdarıyıq. Müharibə, ərazi iddiaları, nifrət, dini və etnik ayrı-seçkilik, revanşizm kimi meyillərə son qoyulmalı, dövlətlər arasında sabitlik hökm sürməli, davamlı iqtisadi inkişaf yolunda səylər göstərilməlidir. Regionumuzda olan bütün dini icmalar, ələlxüsus erməni Apostol kilsəsi bu istiqamətdə fəal çalışmalı, sülhü və dialoqu təşviq etməli, sülhpərvər və humanist ideyaları təbliğ etməlidir. Lakin təəssüflər olsun ki, erməni din xadimləri qonşu xalqlara qarşı təcavüzü dəstəkləyir, erməni diasporunun və lobbisinin imkanlarını səfərbər edərək hazırda erməni terrorçuları və ekstremistlərinin revanşist, radikal, ksenofob, faşizm xislətli əməllərinə bəraət qazandırmağa çalışırlar.

Biz, Azərbaycanda yaşayan din xadimləri bir daha dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara müraciət edir, Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı cinayətlərinə siyasi-hüquqi qiymət verməyə çağırırıq. Həqiqət gec-tez qalib gələcəkdir, ədalət öz yerini tutacaqdır, İnşallah! Qoy Uca Yaradan hamımıza doğrunu yanlışdan seçməkdə və ədalətli olmaqda yardımçı olsun! Amin!"

Müraciəti Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksiy, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Melih Yevdayev, Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili və Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri Aleksandr Şarovski imzalayıblar.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNDƏ 2022-ci ilin aprel ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Əliyev Məhərrəm Abış oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 7 |
| **Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 8,15,22,29 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 8,25 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 18 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 19 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 20 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 22 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq ekspertizası şöbəsinin müdiri** Əliyev Şahin Məhərrəm oğlu | 26 |
| *** | |
| **Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezidentin İşlər müdiri** Quluzadə Ramin Namiq oğlu | 27 |
| *** | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 28 |
| *** | |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 29 |
| *** | |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 29 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79**

**Qəbula yazılma vaxtı: saat 9:00-dan 13:00-dək.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2022-ci ilin aprel ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu CƏDVƏLİ

| S/n | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumu | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Şamaxı** | Şamaxı, Qobustan | **Ali Məhkəmənin sədri** Ramiz Rzayev | 01 |
| 2. | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **Kənd təsərrüfatı naziri** İnam Kərimov | 01 |
| 3. | **Qəbələ** | Qəbələ, Oğuz | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | 01 |
| 4. | **Ağdam (Quzanlı qəsəbəsi)** | Ağdam, Ağcabədi, Laçın | **Ədliyyə naziri** Fikrət Məmmədov | 08 |
| 5. | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **Gənclər və idman naziri** Fərid Qayıbov | 08 |
| 6. | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | 08 |
| 7. | **Biləsuvar** | Biləsuvar, Cəlilabad, Cəbrayıl | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | 08 |
| 8. | **Salyan** | Salyan, Neftçala | **Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri** Zaur Mikayılov | 08 |
| 9. | **Gəncə** | Gəncə, Samux, Kəlbəcər | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | 08 |
| 10. | **Ağdam (Quzanlı qəsəbəsi)** | Ağdam, Ağcabədi, Laçın | **Baş prokuror** Kamran Əliyev | 11 |
| 11. | **Gəncə** | Gəncə, Samux, Kəlbəcər | **"Azərsu" ASC-nin sədrinin səlahiyyətlərini icra edən** Köçərli Həsənov | 12 |
| 12. | **Bərdə** | Bərdə, Tərtər | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | 12 |
| 13. | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Arzu Rəhimov | 14 |
| 14. | **Kürdəmir** | Kürdəmir, Ucar, Zərdab | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | 15 |
| 15. | **Cəlilabad** | Cəlilabad, Biləsuvar, Cəbrayıl | **Energetika naziri** Pərviz Şahbazov | 15 |
| 16. | **Yevlax** | Yevlax, Mingəçevir | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | 15 |
| 17. | **Xaçmaz** | Xaçmaz, Şabran | **Mədəniyyət naziri** Anar Kərimov | 15 |
| 18. | **İsmayıllı** | İsmayıllı, Ağsu | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | 15 |
| 19. | **Füzuli (Horadiz şəhəri)** | Füzuli, Beyləqan, Xocavənd | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | 15 |
| 20. | **Füzuli (Horadiz şəhəri)** | Füzuli, Beyləqan, Xocavənd | **Baş prokuror** Kamran Əliyev | 21 |
| 21. | **Quba** | Quba, Qusar | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | 22 |
| 22. | **Şəmkir** | Şəmkir, Gədəbəy, Ağstafa, Qazax, Tovuz | **Təhsil naziri** Emin Əmrullayev | 22 |
| 23. | **Quba** | Quba, Qusar | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | 25 |
| 24. | **Masallı** | Masallı, Yardımlı | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | 25 |
| 25. | **Hacıqabul** | Hacıqabul, Şirvan, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | 28 |
| 26. | **Göyçay** | Göyçay, Ağdaş, Ağsu, Şamaxı, İsmayıllı, Yevlax, Mingəçevir, Ucar, Kürdəmir | **Daxili işlər naziri** Vilayət Eyvazov | 29 |
| 27. | **Ağstafa** | Ağstafa, Qazax, Tovuz | **Baş prokuror** Kamran Əliyev | 29 |
| 28. | **Zərdab** | Zərdab, Ucar, Kürdəmir | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | 29 |
| 29. | **Xaçmaz** | Xaçmaz, Şabran | **Dövlət Gömrük Komitəsinin sədri** Səfər Mehdiyev | 29 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

*Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Beynəlxalq Humanitar Yardım üzrə Dövlət Komissiyası haqqında ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Beynəlxalq Humanitar Yardım üzrə Dövlət Komissiyası (bundan sonra - Komissiya) xarici dövlətlərdən və beynəlxalq təşkilatlardan Azərbaycan Respublikasına daxil olan humanitar yardımların qəbul edilməsi, uçotunun aparılması, saxlanılması, bölgüsü və bunlarla bağlı digər işlərin təşkil edilməsi, həmçinin Azərbaycan Respublikası tərəfindən xarici dövlətlərə və beynəlxalq təşkilatlara humanitar yardımların göndərilməsi və uçotunun aparılması ilə bağlı işlərin əlaqələndirilməsi məqsədilə yaradılmışdır.

1.2. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Komissiya hər ötən ildəki fəaliyyəti və görülmüş işlər barədə növbəti ilin birinci rübü ərzində Azərbaycan Respublikasının Prezidentinə hesabat təqdim edir.

1.4. Komissiyanın üzərində adı həkk olunmuş blankı və möhürü vardır.

### 2. Komissiyanın fəaliyyət istiqamətləri

2.1. Komissiyanın fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. xarici dövlətlərdən və beynəlxalq təşkilatlardan Azərbaycan Respublikasına daxil olan humanitar yardımlar barədə məlumatları toplamaq, həmin yardımları qəbul etmək, onların uçotunun aparılması, saxlanılması, bölgüsü, təyinatı üzrə çatdırılması və istifadəsi ilə bağlı işləri (bundan sonra - müvafiq sahə) təşkil etmək və bu işlərə nəzarət etmək;

2.1.2. müvafiq sahədə aidiyyəti dövlət orqanlarına (qurumlarına) təkliflər vermək;

2.1.3. Azərbaycan Respublikası tərəfindən xarici dövlətlərə və beynəlxalq təşkilatlara humanitar yardımların göndərilməsi və uçotunun aparılması ilə bağlı işləri təşkil etmək və əlaqələndirmək;

2.1.4. müvafiq sahədə aidiyyəti dövlət orqanlarının (qurumlarının), həmkarlar ittifaqlarının, həmçinin qeyri-hökumət təşkilatlarının fəaliyyətini əlaqələndirmək;

2.1.5. müvafiq sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər vermək.

### 3. Komissiyanın vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Komissiyanın vəzifələri aşağıdakılardır:

3.1.1. Azərbaycan Respublikasının ayrı-ayrı bölgələrində ildə bir dəfə monitorinq və sorğular aparmaqla, humanitar yardıma olan tələbatı müəyyənləşdirmək və bu tələbatın ödənilməsi üçün aidiyyəti dövlət orqanları (qurumları), həmkarlar ittifaqları və qeyri-hökumət təşkilatları ilə birgə müvafiq tədbirlər həyata keçirmək;

3.1.2. xarici dövlətlərdən və beynəlxalq təşkilatlardan Azərbaycan Respublikasına humanitar yardım kimi daxil olmuş maliyyə vəsaitlərinin mərkəzləşdirilmiş qaydada toplanmasını təşkil etmək və həmin vəsaitdən təyinatı üzrə istifadəyə nəzarət etmək;

3.1.3. Azərbaycan Respublikasının xarici siyasətinə uyğun olaraq, xarici dövlətlərə və beynəlxalq təşkilatlara humanitar yardım göstərilməsinə dair aidiyyəti üzrə təkliflər vermək;

3.1.4. Azərbaycan Respublikasına daxil olan humanitar yardımların "Əhalinin sağlamlığının qorunması haqqında", "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikasının müvafiq sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktlarının tələblərinə uyğun olmasına nəzarəti təşkil etmək;

3.1.5. humanitar yardımların ölkəyə gətirilməsini və təyinatı üzrə çatdırılmasını təşkil etmək;

3.1.6. humanitar yardımların təyinat yerlərində bölgüsünü həyata keçirən dövlət orqanlarını (qurumlarını) müəyyən etmək və bu sahədə onların fəaliyyətinə nəzarət etmək;

3.1.7. müvafiq sahədə özəl sektor, həmkarlar ittifaqları və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmək;

3.1.8. müvafiq sahədə beynəlxalq və regional əməkdaşlığın genişləndirilməsi üçün təkliflər hazırlamaq, beynəlxalq təcrübənin öyrənilməsi və təcrübə mübadiləsinin həyata keçirilməsi işlərini əlaqələndirmək;

3.1.9. müvafiq sahədə media ilə əməkdaşlıq etmək;

3.1.10. Azərbaycan Respublikasında fəaliyyət göstərən beynəlxalq humanitar təşkilatlara fəaliyyət istiqamətlərinə uyğun olaraq dəstək göstərmək.

### 4. Komissiyanın hüquqları

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Komissiyanın aşağıdakı hüquqları vardır:

4.1.1. müvafiq sahə ilə bağlı qərarların qəbul edilməsinə dair təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etmək;

4.1.2. xarici dövlətlərin humanitar təşkilatları ilə və beynəlxalq humanitar təşkilatlarla əlaqələr yaratmaq;

4.1.3. fəaliyyət istiqamətlərinə uyğun olaraq işçi qruplar və ekspert qrupları yaratmaq, onların işinə elmi müəssisələrin mütəxəssislərini, aidiyyəti dövlət orqanlarının (qurumlarının), həmkarlar ittifaqlarının, həmçinin ictimaiyyətin nümayəndələrini cəlb etmək;

4.1.4. Azərbaycan Respublikasının gömrük sərhəd-keçid məntəqələrindən keçirilmiş humanitar yardımlar barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsindən məlumatlar əldə etmək;

4.1.5. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, habelə fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğular vermək, onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.6. müvafiq sahədə təhlil aparmaq və onun nəticələrinə əsasən təkmilləşdirmə işlərinə dair aidiyyəti dövlət orqanlarına (qurumlarına) təkliflər vermək;

4.1.7. müvafiq sahədə aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədilə təkliflər hazırlamaq və aidiyyəti dövlət orqanlarına (qurumlarına) müraciət etmək;

4.1.8. fəaliyyət istiqamətləri üzrə normativ hüquqi aktların, strategiyaların, inkişaf konsepsiyalarının və məqsədli proqramların layihələrinə dair təkliflər vermək;

4.1.9. fəaliyyət istiqamətlərinə aid olan məsələlərin həlli üçün tədqiqat, texniki ekspertiza, məsləhət xidmətlərinə və təbliğat-təşviqat işlərinə müvafiq sahə üzrə müstəqil ekspertləri və mütəxəssisləri, eləcə də təhsil müəssisələrini, həmkarlar ittifaqlarını, qeyri-hökumət təşkilatlarını və medianı cəlb etmək.

### 5. Komissiyanın fəaliyyətinin təşkili

5.1. Azərbaycan Respublikasının Prezidenti Komissiyanın tərkibini müəyyən edir və Komissiyanın sədrini təyin edir.

5.2. Komissiyanın işinə sədr rəhbərlik edir.

5.3. Komissiyanın sədri:

5.3.1. Komissiyanın fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.3.2. fəaliyyət istiqamətlərinə uyğun olaraq işçi qruplar və ekspert qrupları yaradır;

5.3.3. Komissiyanın üzvləri, habelə işçi qruplar və ekspert qrupları arasında iş bölgüsü aparır və onların fəaliyyətini əlaqələndirir;

5.3.4. Komissiyanın iclaslarının gündəliyini Komissiya üzvləri ilə birlikdə müəyyənləşdirir, iclasları çağırır və iclaslara sədrlik edir;

5.3.5. Komissiyaya daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxır və qanunla müəyyən edilmiş qaydada tədbirlər görür.

5.4. Komissiyanın sədri bu Əsasnamə ilə Komissiyaya həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə məsuliyyət daşıyır.

5.5. Komissiyanın sədri olmadıqda, onun səlahiyyətlərini Komissiyanın qərarı əsasında Komissiyanın üzvlərindən biri həyata keçirir.

5.6. Komissiyanın, habelə işçi qrupların və ekspert qruplarının üzvləri bu Əsasnamədə nəzərdə tutulmuş və onlara həvalə edilmiş vəzifələrin vaxtında yerinə yetirilməsinə görə məsuliyyət daşıyırlar.

5.7. Komissiyanın səlahiyyətlərinə aid edilmiş məsələlərə onun iclaslarında baxılır və iclasların nəticələri iclas protokolunda əks olunmaqla rəsmiləşdirilir.

5.8. Komissiyanın iclasları ildə iki dəfədən az olmayaraq keçirilir. İclaslar Komissiya sədrinin və ya Komissiya üzvlərinin üçdəbirinin təşəbbüsü ilə çağırılır.

5.9. Komissiyanın iclasları onun üzvlərinin üçdəikisi iştirak etdikdə səlahiyyətlidir.

5.10. Komissiyanın iclaslarına aidiyyəti dövlət orqanlarının (qurumlarının), özəl sektorun, həmkarlar ittifaqlarının nümayəndələri, o cümlədən müstəqil ekspertlər və mütəxəssislər dəvət edilə bilərlər.

5.11. Komissiyanın qərarları hər bir üzvün bir səsi olmaqla açıq səsvermə yolu ilə, iclasda iştirak edən Komissiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına yol verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir. Səsvermə zamanı xüsusi rəyi olan Komissiya üzvü öz rəyini qəbul edilmiş qərara əlavə edə bilər.

5.12. Komissiya qərar qəbul etməkdə müstəqildir.

5.13. Komissiyanın nəzdində daimi fəaliyyət göstərən Katiblik yaradılır. Katiblik Komissiyanın iclaslarının keçirilməsi ilə bağlı təşkilati məsələlərin həllini, müzakirəyə çıxarılacaq məsələlərə aid sənədlərin hazırlanmasını və kargüzarlıq işlərini yerinə yetirir.



# “Dəmir yumruğ”un növbəti təntənəsi

**Ermənistanın 44 günlük müharibədəki məğlubiyyətinin siyasi-hüquqi təsdiqi olan 2020-ci ilin 10 noyabr üçtərəfli Bəyanatının müddəalarından biri erməni silahlı qüvvələrinin Qarabağ ərazisindən çıxarılmasıdır.**

Lakin işğalçı ordunun qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycan ərazilərindən tam olaraq çıxarılması indiyə qədər icra edilməyib. Buna görə Ermənistan bəyanatın müddəalarını pozur.

## Erməni təxribatının qarşısı qətiyyətlə alınıb

Prezident, Ali Baş Komandan İlham Əliyev həmişə bəyan edib ki, “dəmir yumruq” yerindədir və düşmənin istənilən təxribatının qarşısı dərhal alınacaq. “Əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan “dəmir yumruq” yerindədir, bunu heç kim unutmasın!” - deyə İlham Əliyev bildirib.

Vətən müharibəsindən sonra düşmən bir neçə dəfə “dəmir yumruğu”n zərbəsini hiss edib. Hər dəfə “dəmir yumruq”dan sonra ermənilər üçtərəfli Bəyanatın müddəalarını yerinə yetirməyə məcbur edilib. Xatırladaq ki, ötən ilin noyabr ayında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycanla dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları sahəsində ölkəmizə qarşı genişmiqyaslı təxribatlar törətmişdilər. Həmin vaxt Azərbaycan Ordusunun döyüş postlarına hücum edən erməni hərbi birləşməsinə qarşı təxirəsalınmaz əməliyyat həyata keçirilmişdi. Darmadağın edilərək geri otuzdurulan düşmənin təxribat planı iflasa uğradılmışdı. Erməni hərbçiləri tərk-silah edilərək saxlanılmış, ordumuz tərəfindən xeyli sayda silah və sursat qənimət götürülmüşdü.

Həmin təxribatı törətməklə Ermənistan dövlət sərhədinin dəqiqləşdirilməsinin qarşısını almaq istəyirdi. Lakin elə zərbə aldı ki, bir daha delimitasiya və demarkasiya prosesinə qarşı çıxa bilmədi.

Bir neçə gün əvvəl isə baş verənlər bir daha təsdiq etdi ki, “dəmir yumruq” yerindədir. Azərbaycanın Müdafiə Nazirliyinin məlumatına əsasən, martın 26-sı səhər saatlarında dumanlı hava və məhdudgörmə şəraitindən istifadə edən qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Azərbaycan Ordusunun bölmələrinə qarşı təxribat törətməyə cəhd göstəriblər. Dərhal görülən tədbirlər nəticəsində qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri geri çəkilməyə məcbur edilib.

## Fərruxda Azərbaycan bayrağı dalğalanır!

Bu günlərdə ordumuzun bölmələri tərəfindən mövqelərin və dislokasiya yerlərinin dəqiqləşdirilməsi aparılıb. Rusiya sülhməramlılarının olduğu Azərbaycan torpaqlarında hələ də qalan qanunsuz silahlı dəstələrin təxribatının qarşısının alınmasından sonra erməni mənbələri tərəfindən süni şəkildə vəziyyət şişirdilib. Məqsəd qəsdən isterikaya səbəb ola biləcək ab-hava yaratmaqdan, ictimaiyyəti çaşdırmaqdan və yanlış istiqamətə yönəltməkdən ibarət olub.

Təəssüf ki, bundan sonra Rusiya Müdafiə Nazirliyinin açıqlamalarında həqiqətə uyğun olmayan məlumatlar yer alıb. Bununla bağlı Azərbaycan Müdafiə Nazirliyinin açıqlamasında qeyd olunur ki, ordumuzun ölkəmizin suveren ərazilərinin tərkib hissəsi olan Fərrux kəndi və ətraf yüksəkliklərdəki mövqelərində heç bir dəyişiklik baş verməyib. Azərbaycan Ordusunun bölmələrinin həmin mövqelərdən geri çəkilməsi haqqında məlumat həqiqəti əks etdirmir. Ordumuz bu ərazidə əməliyyat şəraitinə tam nəzarət edir.

44 günlük Vətən müharibəsindəki qələbədən sonra Azərbaycan dövləti tərəfindən azad edilmiş ərazilərdə iki iqtisadi rayon yaradılıb: Qarabağ və Şərqi Zəngəzur. Bu gün respublikamızda “Dağlıq Qarabağ” adlı ərazi vahidi yoxdur.

Həmçinin Azərbaycanın Xocalı rayonunda “Furux” adlı kənd də yoxdur. Yalnız Fərrux kəndi var. Hansı ki, onun uğrunda hələ 1990-cı illərin əvvəllərində neçə-neçə oğullarımız şəhid olub. Təəssüf ki, o vaxtlar AXC-Müsavat qaragüruhunun yarıtmaz idarəçiliyi səbəbindən həmin ərazini əldə saxlamaq mümkün olmayıb. Lakin Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan parlaq Zəfər bu kənd üzərində də ordumuzun nəzarətinin təmin olunmasına imkan yaradıb. Fərrux kəndində də Azərbaycan bayrağı dalğalanır. Artıq vaxtilə bu kənd uğrunda şəhid olmuş qəhrəman vətən oğullarının ruhu şaddır.

Prezident İlham Əliyev müsahibələrinin birində demişdir: “Onlar bizim yumruğumuzu görüblər. Bu yumruq yerindədir. Heç kim bizim qabağımızda dura bilməz. Əgər biz zərrə qədər təhlükə görsək, - zərrə qədər, - onları dərhal məhv edəcəyik. Elə yerindəcə məhv edəcəyik. Onlar da bunu bilirlər. Gücümüz də var, iradəmiz də var, cəsarətimiz də var. Yumruq da yerindədir”. Bir neçə gün öncə qeyri-qanuni erməni silahlı dəstələrinin növbəti təxribatına qarşı dərhal görülən tədbirlər də təsdiq edir ki, “dəmir yumruq” istənilən an, istənilən təhdidin qarşısını almaq və düşmənin başını əzmək üçün hazır vəziyyətdədir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Azərbaycan təhlükəsizlik orqanlarının yaradılmasının 103-cü ildönümü ilə bağlı tədbirlər keçirilib





Martın 28-də Azərbaycan təhlükəsizlik orqanlarının əməkdaşlarının peşə bayramı ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyev, xidmətin kollegiya üzvləri və rəhbər heyəti Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla yad edərək məzarı önünə əklil qoyublar.

DTX-nin İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarını fəda etmiş qəhrəman Vətən övladlarının və Birinci Qarabağ müharibəsi zamanı şəhid olmuş təhlükəsizlik orqanları əməkdaşlarının məzarları da ziyarət edilərək üzərilərinə gül dəstələri düzülüb, xidmətin adından “Əbədi məşəl” abidəsinin önünə əklil qoyulub.

Tədbir Dövlət Təhlükəsizliyi Xidmətinin akt zalında rəsmi hissə ilə davam edib. DTX-nin rəisi general-polkovnik Əli Nağıyev tədbirdə çıxış edərək şəxsi heyəti və veteranları peşə bayramı münasibətilə təbrik edib. Mənalı ömrünün 25 ilini təhlükəsizlik orqanlarına həsr edərək şərəfli xidmət yolu keçən Ulu Öndər Heydər Əliyevin bu orqanların fəaliyyətinə verdiyi əvəzolunmaz töhfələrdən danışan xidmət rəisi qeyd edib ki, Ümummilli Lider Azərbaycan xüsusi xidmət orqanlarının tarixində peşəkarlıq məktəbi yaradıb, sovet dövründə və müstəqillik illərində ölkəyə rəhbərliyi dövründə heç zaman bu orqanlardan diqqət və qayğısını əsirgəməyib.

General-polkovnik Əli Nağıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik rəhbərliyi ilə yürüdülən uğurlu daxili və xarici siyasət nəticəsində respublikamızda təhlükəsizliyin etibarlı şəkildə qorunduğunu, müəyyən xarici dairələr və düşmən qüvvələr tərəfindən ölkəmizə yönələn terror-təxribat və kəşfiyyat-pozuculuq fəaliyyətinin qarşısının vaxtında və çevik alınması üçün müvafiq tədbirlərin davam etdirildiyini bildirib və müasir dövrdə DTX-nin qarşısında duran əsas vəzifələr barədə məlumat verib.

Çıxışının sonunda general-polkovnik Əli Nağıyev əminliyini ifadə edərək deyib ki, heç bir qüvvə Azərbaycanı öz seçdiyi yolundan döndərə bilməz, ölkənin milli maraqlarına yönələn bütün təhdid və hər cür cəhdlərin qarşısı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə DTX-nin şəxsi heyəti tərəfindən bundan sonra da qətiyyətlə alınacaq, ölkədə davamlı sabitlik və əmin-amanlıq təmin ediləcək. Xidmət rəisi tərəfindən DTX-nin əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi və mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına göstərdiyi diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıq ifadə edilib.

Sonra təhlükəsizlik orqanlarının veteranı, Milli Məclisin deputatı Arzu Nağıyev söz alaraq təhlükəsizlik orqanları əməkdaşlarını bu əlamətdar gün münasibətilə təbrik edib, çətin və şərəfli xidmətlərində onlara uğurlar arzulayıb. O, ötən əsrə ekskurs edərək xüsusi xidmət orqanlarının təşəkkülündən danışıb, bu orqanların Azərbaycanın dövlətçilik tarixindəki mühüm rolunu xüsusi qeyd edib.

Tədbirdə DTX-nin əməkdaşlarının dövlət təltifləri ilə mükafatlandırılması barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamı elan olunub, əməkdaşlara mükafatlar təqdim edilib.

Daha sonra Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, İctimai Televiziya və “Azərbaycanfilm” Kinostudiyasının birgə hazırladığı DTX-nin əməkdaşlarının 44 günlük Vətən müharibəsində tarixi Qələbənin qazanılmasına verdikləri töhfələrə həsr edilmiş “Görünməyən qəhrəmanlar” adlı sənədli film nümayiş etdirilib.

Tədbirin bədii hissəsi DTX-nin Mədəniyyət Mərkəzində tanınmış mədəniyyət və incəsənət xadimlərinin ifasında konsert proqramı ilə davam etdirilib.

# Qaxda Heydər Əliyev Fondu tərəfindən inşa edilən Mədəniyyət evi istifadəyə verilib

Martın 28-də Heydər Əliyev Fondunun Qax rayonunun Qaxingiloy kəndində inşa etdiyi Mədəniyyət evi istifadəyə verilib.




AZƏRTAC xəbər verir ki, Qaxingiloy Kənd Mədəniyyət Evi 1965-ci ildən fəaliyyət göstərir. Mədəniyyət evinin binası uzun illər istismarda olduğundan son dövrlər yararsız vəziyyətə düşmüşdü. 2020-ci ilin martında bina tamamilə sökülərək yerində yeni bina inşa olunub. Mədəniyyət evi zəruri mebel və avadanlıqla təchiz edilib, həyətində abadlıq işləri aparılıb.

Açılış mərasimində çıxış edən Heydər Əliyev Fondunun şöbə müdiri Elvin Aslanov rayon sakinlərini, mədəniyyət evinin kollektivini əlamətdar hadisə münasibətilə təbrik edərək deyib: “Heydər Əliyev Fondu yarandığı gündən ölkəmizin təhsil, mədəniyyət, idman və digər sahələrində müxtəlif layihələr həyata keçirir. Belə bir mədəniyyət evinin istifadəyə verilməsi də bu layihələrin real nəticəsini göstərir. Burada gənclərin, kənd sakinlərinin asudə vaxtlarının, mədəni istirahətlərinin səmərəli təşkili üçün müxtəlif layihələr həyata keçiriləcək. Ümid edirik ki, mədəniyyət evi həm kəndin, eyni zamanda rayonun ictimai və mədəni həyatına öz töhfəsini verəcək”.

Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev çıxış edərək, Heydər Əliyev Fondu tərəfindən rayonda həyata keçirilən layihələr barədə məlumat verib. Diqqətə çatdırılıb ki, fondun təşəbbüsü ilə indiyədək Qax rayonunda 240 şagird yerlik iki məktəb binası, 100 yerlik iki uşaq bağçası, Lələpaşa və Tasmalı kəndlərində aztəminatlı ailələr üçün iki fərdi yaşayış evi tikilib istifadəyə verilib, Vətən müharibəsi şəhidinin ailəsinin evi təmir olunub. Qeyd edilib ki, Azərbaycanın digər rayonları kimi, Qaxda da milli azlıqların adət-ənənələrinə həmişə hörmətlə yanaşılır. Qaxda yaşayan bütün milli azlıqlara dövlət tərəfindən daim xüsusi qayğı göstərilir. “Yeni istifadəyə verilən mədəniyyət evi bütövlükdə ölkəmizdə aparılan multikulturalizm və tolerantlığın qorunması və inkişaf etdirilməsi ilə bağlı siyasətin yerlərdə həyata keçirilməsinin bariz nümunəsidir”, - deyə M.Şəkiliyev vurğulayıb.

Tədbirdə Qaxingiloy Kənd Mədəniyyət Evinin direktoru İaqo Kasiaşvili və kənd sakini Zaira Kuloşvili çıxış edərək, Azərbaycanda azsaylı xalqların milli mədəniyyətlərinin, adət-ənənələrinin qorunmasına və inkişaf etdirilməsinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya sakinlər adından minnətdarlıqlarını bildiriblər.

Mədəniyyət evində geniş tamaşaçı zalı, səhnə, incəsənət növləri üzrə məşğələlərin təşkili üçün rəssam və heykəltaraşlıq, həmçinin ansambl, musiqi və ədəbiyyat dərnəkləri üçün otaqlar var. Binanın ikinci mərtəbəsində qonaq və qrim otaqları yerləşir.

Mədəniyyət ocağında 1982-ci ildən “Şvitkatso” Gürcü Xalq Xoru və 1991-ci ildən “İmedi” rəqs kollektivi fəaliyyət göstərir. Hər iki kollektiv istər ümumrayon, istərsə də respublika səviyyəli, həmçinin Mədəniyyət Nazirliyi tərəfindən keçirilən tədbirlərdə, festivallarda uğurla çıxış edərək diplom və fəxri fərmanlara layiq görülüb. “Şvitkatso” Gürcü Xalq Xoru 2021-ci ilin mayında Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə keçirilən “Xarıbülbül” Musiqi Festivalında Qax rayonunu uğurla təmsil edib.

Tədbirin sonunda mədəniyyət evinin “İmedi” rəqs qrupu çıxış edib.

# “Buta Airways” Bakı ilə Batumi arasında uçuşlara başlayır

**“Buta Airways” aviaşirkətinin Mətbuat xidmətinin verdiyi məlumata görə, iyundan etibarən “Buta Airways” aviaşirkəti yay cədvəli çərçivəsində Bakı-Batumi marşrutu üzrə və əks-istiqamətdə uçuşlar yerinə yetirməyə başlayacaq.**



Bu il iyunun 1-dən etibarən aviaşirkət Bakı-Batumi-Bakı marşrutu üzrə həftədə iki dəfə - cümə və bazar günləri uçuşlar həyata keçirəcək.

Batumi şəhərinə uçuş aviaşirkətin Tbilisidən sonra Gürcüstana ikinci bərpa olunmuş beynəlxalq istiqamətidir.

Həmin uçuşlara biletləri “butaairways.az” rəsmi saytından (“Büdcə”, “Standart” və “Super” tarifləri üzrə), həmçinin aviaşirkətin akkreditə olunmuş agentliklərindən (yalnız “Super” tarifi üzrə) əldə edə bilərsiniz.

Biletlərin dəyəri 29 avrodan başlayır.

Pandemiya dövründə qeyd edilən reyslərə həm gediş, həm də gəliş zamanı Heydər Əliyev Beynəlxalq Aeroportunun birinci terminalında xidmət göstərilir.

Daşımaya yalnız mövcud epidemioloji məhdudiyyətlər şəraitində uçuş icazəsi olan sərnişinlər kateqoriyası qəbul olunacaq.

Gürcüstana səfər etməyi planlaşdıran Azərbaycan vətəndaşlarının bu ölkənin ərazisinə giriş hüququ olmalıdır. Pandemiya dövründə Gürcüstan ərazisinə giriş qaydaları aviaşirkətin saytında qeyd edilmişdir: **https://www.butaairways.az/az/covid/georgia.**

Azərbaycanda COVID-19 üçün test verilə bilən klinikaların siyahısı aviaşirkətin saytında qeyd edilmişdir: **https://www.butaairways.az/az/covid/clinics.**

Gürcüstandan Azərbaycana uçuş zamanı COVID-19 testindən keçmək zəruridir. COVID-19 testinin nəticəsi uçuşdan əvvəl 72 saat ərzində etibarlı olmalıdır.

# Ayaz Niyazi oğlu Mütəllibov



Tanınmış ictimai-siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının sabiq Prezidenti Ayaz Niyazi oğlu Mütəllibov 2022-ci il martın 27-də, ömrünün 84-cü ilində vəfat etmişdir.

Ayaz Mütəllibov 1938-ci il mayın 12-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1956-1962-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1958-ci ildə Azərbaycan Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunun Konstruktor bürosunda böyük texnik kimi başlayan Ayaz Mütəllibov 1959-cu ildən etibarən Bakı Məişət Elektrik Cihazları Zavodunda quraşdırma sexinin ustası, mühəndis, texniki nəzarət şöbəsinin rəisi, baş konstruktor və baş mühəndis vəzifələrində çalışmışdır. O, 1966-cı ildə Bakı Soyuducular Zavodunun direktoru təyin olunmuş, 1974-1977-ci illərdə həmin vəzifədə qalmaqla “Bakelektroməişətmaş” İstehsalat Birliyinin baş direktoru işləmişdir.

Ayaz Mütəllibov 1977-ci ildə Bakı şəhəri Nərimanov Rayon Partiya Komitəsinin ikinci katibi seçilmiş, 1979-cu ildə Azərbaycan SSR-in yerli sənaye naziri təyin olunmuşdur. O, 1982-1989-cu illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini - Dövlət Plan Komitəsinin sədri və 1989-1990-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifələrini tutmuş, 1990-cı ilin yanvarında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, 1990-1991-ci illərdə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin və onun Siyasi Bürosunun üzvü olmuşdur. Ayaz Mütəllibov 1990-cı ilin mayında Azərbaycan SSR Ali Soveti tərəfindən təsis olunan Azərbaycan SSR-in Prezidenti vəzifəsinə seçilmiş, 1991-ci ilin sentyabrından Azərbaycan Respublikasının Prezidenti olmuş, 1992-ci ildə isə vəzifəsindən istefa vermişdir.

Bir neçə çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olan Ayaz Mütəllibov sovet dövrünün bir sıra orden və medalları ilə təltif edilmişdir.

İctimai-siyasi və dövlət xadimi Ayaz Niyazi oğlu Mütəllibovun xatirəsi onu tanıyanların qəlbində yaşayacaqdır.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV, Mehriban ƏLİYEVA, Əli ƏSƏDOV, Sahibə QAFAROVA, Samir NURİYEV, Eldar ƏZİZOV, Yaqub EYYUBOV, Şahin MUSTAFAYEV***

# “Roskomnadzor” Azərbaycan KİV-ini bloklamaqla beynəlxalq prinsipləri pozur

Azərbaycanın jurnalist təşkilatları Rusiyanın Rabitə, İnformasiya Texnologiyaları və Kütləvi İnformasiya Vasitələrinə Nəzarət Federal Xidmətinin (Roskomnadzor) ölkəmizin bır sıra KİV-ini bloklaması ilə əlaqədar Rusiya Federasiyasının əlaqədar dövlət qurumlarına və beynəlxalq media ictimaiyyətinə müraciət ünvanlayıb. AZƏRTAC müraciəti təqdim edir:

“Rusiyanın Rabitə, İnformasiya Texnologiyaları və Kütləvi İnformasiya Vasitələrinə Nəzarət Federal Xidməti (Roskomnadzor) Azərbaycanın populyar və peşəkar KİV-indən olan “Oxu.az” xəbər portalının Rusiya Federasiyası ərazisində yayımına blok qoyub. Bu qərar saytın redaksiyasına heç bir məlumat, xəbərdarlıq edilmədən verilib. Bir müddət əvvəl isə analoji qərar Azərbaycanda fəaliyyət göstərən digər rusdilli saytlar - “Haqqin.az” və “minval.az” saytları barədə verilib. Növbəti günlərdə siyahının genişlənəcəyi gözlənilir.

“Roskomnadzor” Azərbaycan KİV-inin bloklanması qərarına rəsmi izahat vermək istəmir. Bilinən budur ki, qeyd edilən KİV-lər Rusiya-Ukrayna müharibəsi barədə müntəzəm olaraq informasiyalar yayır, müharibənin gedişatında Rusiya tərəfindən beynəlxalq normaların pozulduğunu ehtiva edən məlumatlar verirlər. Azərbaycan KİV-ləri özlərinin informasiya siyasətində reallığa söykənirlər, Rusiya-Ukrayna müharibəsini müşahidə legitim beynəlxalq təşkilatların hesabatlarına, o cümlədən rəsmi qurumlara istinad edirlər. Rusiya tərəfi reallıqların KİV müstəvisində görünməsindən narahatlıq keçirməməli, öz narahatlığını sosial şəbəkə platformalarının bloklanması, KİV qurumlarının yayımına məhdudiyyətlər tətbiq edilməsi formasında büruzə verməməlidir.

Nəzərə almaq lazımdır ki, insanların, o cümlədən rusdilli əhalinin həqiqəti bilmək kimi fundamental hüquqları var. “Roskomnadzor” rus dilində həqiqətləri yayan KİV-ləri, o cümlədən Azərbaycanın xəbər portallarını bloklamaqla söz azadlığını, plüralizm prinsiplərini pozur, demokratiyaya zidd hərəkətlər edir.

Qeyd etməyi zəruri sayırıq ki, Azərbaycan dövləti öz təhlükəsizliyi üçün vacib olan zamanlarda, hətta İkinci Qarabağ savaşı - 44 günlük müharibə - dönəmində də Rusiya KİV-inin bloklanmasını həyata keçirməyib. Baxmayaraq ki, Rusiyanın əksər KİV-ləri 44 günlük müharibə dövründə rəqib cəbhədə yer tutaraq Azərbaycana qarşı informasiya savaşı aparırdılar.

Bizlər Azərbaycan jurnalist təşkilatları olaraq Rusiyanın Rabitə, İnformasiya Texnologiyaları və Kütləvi İnformasiya Vasitələrinə Nəzarət Federal Xidmətinə müraciət edərək, özlərinin yanlış qərarlarına yenidən baxmağa, Azərbaycan KİV-inə tətbiq edilmiş blokları aradan qaldırmağa çağırırıq. Eyni zamanda beynəlxalq media ictimaiyyətinə müraciət edərək bildiririk ki, Rusiyanın yanlış, antidemokratik addımlarının dayandırılması üçün həmrəylik göstərməyə zərurət yaranıb.

İmzalayanlar:

1) Müşfiq Ələsgərli, Jurnalistlərin Həmkarlar İttifaqının sədri
2) Umud Rəhimoğlu, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri
3) Yadigar Məmmədli, Demokratik Jurnalistlər Liqasının sədri
4) Ayaz Mirzəyev, Azərbaycan Jurnalistlər Şəbəkəsi
5) Elşad Eyvazlı, Parlament Jurnalistlər Birliyinin (Tərəfsiz Jurnalistlər İB) sədri
6) Fazil Abbasov, “İslam Əməkdaşlığı Təşkilatına üzv Dövlətləri Jurnalistləri Assosiasiyası” İctimai Birliyi
7) Cəsarət Hüseynzadə, “İnformasiya Təşəbbüslərinə Dəstək” İctimai Birliyi
8) Nadir Azəri, CASCFEN-in (Orta Asiya-Güney Qafqaz Söz azadlığı Şəbəkəsi) sədri
9) Seymur Verdizadə, Jurnalist Araşdırmaları Mərkəzi
10) Xalid Kazımov, Regional İnsan Hüquqları və Media Mərkəzi İctimai Birliyi.

# Pakistanın Quru Qoşunları komandanı ilə görüş

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı general Qamar Caved Bacva ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Pakistan arasında ikitərəfli əlaqələrin, o cümlədən hərbi əməkdaşlıq və strateji tərəfdaşlığın yüksələn xətlə inkişafından danışılıb. Həmçinin Azərbaycan, Pakistan və Türkiyənin iştirakı ilə ikitərəfli, eləcə də üçtərəfli birgə hərbi əməkdaşlığın genişləndirilməsi istiqamətində görülən işlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonda hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyi vurğulanıb.

# Azərbaycanın müdafiə naziri ilə rusiyalı həmkarı arasında telefon danışığı olub

Martın 25-də Rusiya Federasiyasının müdafiə naziri ordu generalı Sergey Şoyqunun təşəbbüsü ilə onun Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə telefon danışığı olub.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Tərəflər Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindəki mövcud vəziyyəti, həmçinin regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran bir sıra digər məsələləri müzakirə ediblər.

# Nazirlikdə xidməti müşavirə keçirilib

Martın 28-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri cəlb olunub. Azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik, birləşmə komandirləri, o cümlədən digər məsul zabitlər müşavirəyə videobağlantı vasitəsilə qoşulublar.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb.

Müdafiə naziri Ali Baş Komandanın Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığına yüksək qiymət verdiyini qeyd edib.

Müşavirədə Azərbaycan-Ermənistan dövlət sərhədindəki vəziyyət və Qarabağ iqtisadi zonasındakı əməliyyat şəraiti geniş təhlil edilib. Nazir hərbi hissələrin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, xidməti-döyüş fəaliyyətinin daim təkmilləşdirilməsi, ayıq-sayıqlığın artırılması barədə vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

Müdafiə naziri bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə real döyüş şəraitinə uyğun intensiv təlim və praktiki məşqlərin keçirilməsi, həmçinin hərbi hissələrin qarşısında duran döyüş tapşırıqlarının dəqiq və vaxtında icrasına daim hazır olması barədə göstəriş verib.

General-polkovnik Z.Həsənov silahlanmaya yeni qəbul edilmiş müasir silah, texnika və digər döyüş vasitələrinin tətbiqinə şəxsi heyətin hər an hazır olması barədə komandir və rəis heyətinə tapşırıq verib.

Nazir yüksək dağlıq və sərt iqlim şəraitində döyüş növbətçiliyi aparan bölmələrin maddi-texniki və mühəndis təminatı, o cümlədən şəxsi heyətin sağlamlığının gücləndirilməsi və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə xüsusi diqqət yetirilməsi ilə bağlı müvafiq vəzifəli şəxslər qarşısında tapşırıq qoyub.

# Sülhməramlı kontingentin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində hər hansı toqquşma baş verməyib

Erməni mənbələri tərəfindən Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan əraziləri boyunca, guya, vəziyyətin gərginləşdiyi barədə verilən xəbərlər həqiqəti əks etdirmir.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin yaydığı məlumatda deyilir.

"Məntəqədə mövqelərin və dislokasiya yerlərinin dəqiqləşdirilməsi aparılır, hər hansı toqquşma və ya insident baş verməyib. Erməni mənbələri tərəfindən vəziyyət süni şəkildə şişirdilir. Məqsəd qəsdən isterikaya səbəb ola biləcək ab-hava yaratmaq, ictimaiyyəti çaşdırmaq və yanlış istiqamətə yönəltməkdən ibarətdir. Narahatlıq və təşviş üçün heç bir əsas yoxdur.

Azərbaycan Ordusunun bölmələri əməliyyat şəraitinə tam nəzarət edir", - deyə məlumatda bildirilir.

# "Ermənistanın informasiya təxribatı davam edir"

Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində, guya, pilotsuz uçuş aparatlarının (PUA) istifadə edilməsi ilə silahlı toqquşmanın baş verməsi və nəticədə hərbi qulluqçularımızın həlak olması barədə Ermənistan tərəfinin yaydığı təxribat xarakterli xəbərlər yalandır.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Nazirliyin məlumatında bildirilib ki, Azərbaycan Ordusunun bölmələri güc tətbiq etmədən mövqelərin və dislokasiya məntəqələrinin yerlərinin dəqiqləşdirilməsi prosesini davam etdirir. Bölmələrimiz əməliyyat şəraitinə tam nəzarət edir.

# Azərbaycanın Müdafiə Nazirliyi açıqlama yayıb

Azərbaycan Respublikası Müdafiə Nazirliyi Rusiya Federasiyası Müdafiə Nazirliyinin 2022-ci il 26 mart tarixli həqiqəti əks etdirməyən və birtərəfli açıqlaması ilə bağlı təəssüfünü bildirir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, martın 25-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun Rusiya Federasiyasının müdafiə naziri ordu generalı Sergey Şoyqu ilə telefon danışığı zamanı Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan əraziləri boyunca yaranmış vəziyyət müzakirə edilmişdir. Söhbət zamanı Azərbaycan tərəfi bəyan etmişdir ki, məntəqələrdə mövqelərin və dislokasiya yerlərinin dəqiqləşdirilməsi aparılır.

Lakin buna baxmayaraq, martın 26-sı səhər saatlarında qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Azərbaycan Ordusunun bölmələrinə qarşı təxribat törətməyə cəhd göstəriblər. Dərhal görülən tədbirlər nəticəsində qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri geri çəkilməyə məcbur edilib.

Müdafiə Nazirliyi bildirir ki, Azərbaycan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata sadiqdir və onun heç bir müddəasını pozmayıb.

Təəssüflə qeyd edirik ki, həmin Bəyanatın 4-cü bəndinə uyğun olaraq, Ermənistan ordusunun qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycan ərazilərindən tam olaraq çıxarılması indiyə qədər icra edilməmişdir. Buna görə Bəyanatın müddəalarını pozan Azərbaycan deyil, məhz Ermənistandır.

Müdafiə Nazirliyi bildirir ki, Rusiya Federasiyası Müdafiə Nazirliyinin bu açıqlaması ikitərəfli əlaqələrin mahiyyətinə və 2022-ci il 22 fevral tarixində iki ölkə arasında imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannaməyə ziddir.

Azərbaycan ərazisində "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi yoxdur. Açıqlamada qeyd edilən kəndin adı Furux deyil, Fərruxdur.

Yuxarıda qeyd edilənlərlə əlaqədar Azərbaycan Respublikası Müdafiə Nazirliyi Rusiya Federasiyası Müdafiə Nazirliyini üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq Ermənistan ordusunun qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərindən tam olaraq çıxarılmasını təmin etməyi, Azərbaycan silahlı qüvvələrinin ölkəmizin suveren əraziləri daxilində hərəkətini təhrif edilmiş formada qələmə verməməyi, "Dağlıq Qarabağ" ifadəsi işlətməməyi və Azərbaycan ərazilərinin adını düzgün olaraq göstərməyi xahiş edir.

# Rusiya Müdafiə Nazirliyinin 27 mart tarixli açıqlamasında əks olunan məqamlar həqiqətə uyğun deyil

Azərbaycan Respublikası Müdafiə Nazirliyi təəssüflə bildirir ki, Rusiya Federasiyası Müdafiə Nazirliyinin 2022-ci il 27 mart tarixli açıqlamasında əks olunan məqamlar həqiqətə uyğun deyildir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun ölkəmizin suveren ərazilərinin tərkib hissəsi olan Fərrux kəndi və ətraf yüksəkliklərdəki mövqelərində heç bir dəyişiklik baş verməyib.

Azərbaycan Ordusunun bölmələrinin həmin mövqelərdən geri çəkilməsi haqqında məlumat həqiqəti əks etdirmir. Ordumuz əməliyyat şəraitinə tam nəzarət edir.

Rusiya Federasiyası Müdafiə Nazirliyinin açıqlamasında atəşkəsin guya Azərbaycan tərəfindən pozulması barədə verilmiş məlumat da həqiqətə uyğun deyil və Azərbaycan hərbçiləri arasında yaralanma halı qeydə alınmayıb.

Bir daha xatırlatmaq istərdik ki, Azərbaycan ərazisində "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi yoxdur.

Rusiya Müdafiə Nazirliyinin 26 və 27 mart tarixli açıqlamalarında "Dağlıq Qarabağ" ifadəsinin işlədilməsi Azərbaycan Respublikasının beynəlxalq birlik, o cümlədən Rusiya Federasiyası tərəfindən tanınmış və qəbul edilmiş ərazi bütövlüyünə qarşı hörmətsizlikdir.

Rusiya Federasiyası Müdafiə Nazirliyinə xatırlatmaq istərdik ki, 2022-ci il 22 fevral tarixində iki ölkə prezidentləri tərəfindən imzalanmış Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin birinci bəndində qeyd olunur ki, Rusiya Federasiyası və Azərbaycan Respublikası öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik əsasında qururlar.

Bundan əlavə, Bəyannamənin 18-ci bəndinə əsasən, Rusiya Federasiyası və Azərbaycan Respublikası beynəlxalq terrorçuluq, ekstremizm və separatçılıq təhdidlərinə, qarşı mübarizədə və onların neytrallaşdırılmasında səylərini birləşdirirlər.

Rusiya Federasiyası Müdafiə Nazirliyi bu açıqlaması ilə eyni zamanda, Rusiya Federasiyasının Prezidenti, Rusiya Silahlı Qüvvələrinin Ali baş komandanı Vladimir Vladimiroviç Putin tərəfindən də imzalanmış sözügedən bəyannaməyə də hörmətsizlik nümayiş etdirir.

Müdafiə Nazirliyi bir daha bildirir ki, Azərbaycanın Xocalı rayonunda "Furux" adlı kənd yoxdur. Qeyd edilən kəndin adı Fərruxdur. Ümid edirik ki, növbəti açıqlamalarda kəndin adı düzgün formada göstəriləcək.

# Qanunsuz erməni silahlı dəstələrinin üzvlərinin təxribat cəhdinin qarşısı alınıb

Martın 26-sı səhər saatlarında dumanlı hava və məhdudgörmə şəraitindən istifadə edən qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Azərbaycan Ordusunun bölmələrinə qarşı təxribat törətməyə cəhd göstəriblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dərhal görülən tədbirlər nəticəsində qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri geri çəkilməyə məcbur edilib.

Baş vermiş insident barədə Rusiya sülhməramlı kontingentinin komandanlığına və Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinə məlumat verilib. Azərbaycan Ordusunun bölmələri sırasında itki yoxdur. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

# Azərbaycanın xarici işlər naziri Almaniyaya səfər edib

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov martın 28-də Almaniya Federativ Respublikasına işgüzar səfər edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində nazir Ceyhun Bayramovun ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulub.

# ATƏT-in Minsk qrupunun həmsədri qismində ABŞ tərəfindən təəssüf ki, 30 il ərzində heç bir effektiv addım atılmayıb

Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzünə son qoyulması üçün bu illər ərzində ATƏT-in Minsk qrupunun həmsədri qismində ABŞ tərəfindən təəssüf ki, heç bir effektiv addım atılmayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin ABŞ Dövlət Departamentinin Mətbuat xidməti rəhbərinin müavininin açıqlamasına dair şərhində deyilir.

"25 mart 2022-ci ildə ABŞ Dövlət Departamentinin Mətbuat xidmətinin rəhbərinin müavini Calina Porterin KİV nümayəndələri ilə görüşü zamanı Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı səsləndirdiyi fikirlə bağlı Dövlət Departamentinin rəsmisinin diqqətinə çatdırırıq ki, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzünə son verilməsi üçün bu illər ərzində ATƏT-in Minsk qrupunun həmsədri qismində ABŞ tərəfindən təəssüf ki, heç bir effektiv addım atılmayıb.

Azərbaycan özü beynəlxalq hüquq əsasında ərazi bütövlüyünü bərpa edib və BMT TŞ qətnamələrinin icrasını təmin edib. Hazırda "Dağlıq Qarabağ" anlayışı mövcud deyil, Azərbaycanın tərkib hissəsi olan Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları mövcuddur.

Saxta erməni təbliğatı əsasında ABŞ Dövlət Departamenti rəsmisi tərəfindən belə bir açıqlamanın verilməsi özü məsuliyyətsiz bir davranışdır.

Bir daha vurğulamaq istərdik ki, Azərbaycan Respublikası öz suveren ərazilərində fəaliyyət göstərir", - XİN-in açıqlamasında bildirilir.

# Azərbaycan XİN Ermənistana cavab verib

Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən martın 24-də, guya, bölgədə vəziyyətin gərginləşməsi ilə bağlı Azərbaycana qarşı ittihamları əks etdirən bəyanatı bu ölkənin növbəti dəfə beynəlxalq ictimaiyyəti yanlış istiqamətə yönəltmək cəhdidir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında qeyd olunub.

"Azərbaycan Müdafiə Nazirliyi tərəfindən məlumat verildiyi kimi, bölgədə mövqelərin və dislokasiya yerlərinin dəqiqləşdirilməsi aparılır, hər hansı isteriyaya əsas yoxdur. Ermənistan tərəfi isə məsələni süni şəkildə şişirdərək dezinformasiya ilə məşğuldur.

Bölgədə bir neçə gün ərzində ağır hava şəraiti ilə əlaqədar qaz xətlərində yaranan texniki problemlərə gəldikdə isə, Ermənistanın vəziyyətdən siyasi manipulyasiya aləti kimi istifadə etmək niyyəti göz qarşısındadır.

Xatırlatmaq istərdik ki, uzun illər ərzində 400.000 dən çox əhalisi olan Naxçıvan Muxtar Respublikasını qaz blokadasında saxlayan, 30 ilə yaxın Sərsəng Su Anbarından istifadə etməklə su terrorunu törədən, yüzlərlə insanın həyatına və sağlamlığına son qoyan minaların xəritələrinin mövcudluğunu uzun müddət inkar edən, hələ 1990-cı illərin əvvəllərində itkin düşən 4000-dək azərbaycanlının taleyi ilə bağlı məlumatı gizlədən Ermənistanın indi Azərbaycana qarşı əsassız ittihamlarla çıxış etməsi bu ölkənin siyasi riyakarlığından başqa bir şey deyildir.

Hazırda bölgədə sülh və sabitliyin təmin edilməsinin yeganə yolu imzalanmış birgə bəyanatların müddəalarının tam icrası, o cümlədən erməni qanunsuz birləşmələrinin qalıqlarının bölgədən tam çıxarılması və beynəlxalq hüquq prinsipləri əsasında münasibətlərin normallaşmasından ibarətdir.

İndi siyasi manipulyasiya yox, real işlə məşğul olmaq zamanıdır", - deyə XİN-in məlumatında bildirilir.

# Ceyhun BAYRAMOV: "Bölgədə sülh və sabitliyin təmin olunması üçün ilk növbədə üçtərəfli bəyanatların tam icrası vacibdir"

Almaniyaya işgüzar səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov martın 28-də Almaniya Federativ Respublikasının Elm və Siyasət Fondunun Alman Beynəlxalq Siyasət və Təhlükəsizlik İnstitutunun direktoru Ştefan Mayer və İnstitutun elmi tədqiqatçıları ilə "dəyirmi masa" formatında görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan ilə Almaniya arasında ikitərəfli münasibətlər, eləcə də ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığı, beynəlxalq aləmdə və regionda baş verən proseslərə dair geniş fikir mübadiləsi aparılıb. Tərəflər həmçinin Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında əməkdaşlığın perspektivlərini, enerji sahəsində strateji tərəfdaşlıq məsələlərini müzakirə ediblər.

Nazir Ceyhun Bayramov 44 günlük Vətən müharibəsi və üçtərəfli bəyanatların imzalanmasından sonra bölgədə yaranmış yeni reallıqlar, davamlı sülhə nail olunmasına dair imkanlar və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə bağlı Azərbaycanın mövqeyi barədə qarşı tərəfə ətraflı məlumat verib. Bölgədə sülh və sabitliyin təmin olunması üçün ilk növbədə imzalanmış üçtərəfli bəyanatların tam icra olunmasının vacibliyi vurğulanıb.

Sual-cavab formatında davam edən görüşdə tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında geniş fikir mübadiləsi aparıblar.

# "Ermənistan XİN-in Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı iftira xarakterli bəyanatını qətiyyətlə rədd edirik"

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Ermənistan XİN-in Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı 2022-ci il 28 mart tarixli əsassız bəyanatını şərh edib.

AZƏRTAC XİN-in Mətbuat xidməti idarəsinə istinadla şərhi təqdim edir: "Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı tamamilə həqiqətdən uzaq və iftira xarakterli bəyanatını qətiyyətlə rədd edirik.

İlk növbədə, Ermənistan tərəfinə bir daha xatırladırıq ki, Azərbaycanın suveren əraziləri ilə bağlı edilən şərhlər bu ölkənin Azərbaycanın daxili işlərinə qarışmaq cəhdidir və beynəlxalq hüquq pozuntusudur. Otuz ilə yaxın güc tətbiq etməklə Azərbaycanın ərazilərinin bir hissəsini hərbi işğal altında saxlayan, bir milyondan çox azərbaycanlını etnik təmizləməyə məruz qoyaraq öz evlərində yaşamaq hüququndan məhrum edən Ermənistan, görünür, beynəlxalq hüquq pozuntusunu bir vərdiş halına gətirib.

Azərbaycanı 2020-ci ilin 9/10 noyabr tarixli üçtərəfli Bəyanatı yerinə yetirməməkdə ittiham edən Ermənistan münaqişənin bitməsi ilə bölgədə yaranan əməkdaşlıq imkanlarına rəğmən, imzalanmış birgə Bəyanatın müddəalarını pozmaqla iki ölkə arasında normallaşma prosesinə zərbə vuran tərəfdir.

Məhz Ermənistan postmünaqişə mərhələsində Azərbaycana qarşı açıq ərazi iddialarını davam etdirir və bunu, o cümlədən XİN səviyyəsində Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı verdiyi hər bir açıqlamasında gündəmə gətirir. Məhz Ermənistan üçtərəfli Bəyanatın 4-cü bəndinə zidd olaraq erməni silahlı qüvvələrinin qalıqlarını hələ də bölgədən çıxarmır. Ermənistan Bəyanatın 6-cı maddəsini pozaraq Laçın dəhlizi vasitəsilə hərbçilərin bölgəyə göndərilməsini davam etdirir. Bu fakt beynəlxalq media tərəfindən də təsdiqini tapıb.

Xüsusilə vurğulamaq istərdik ki, Azərbaycan tərəfinin tələbi ölkənin Qarabağ bölgəsində yaşayan ermənəsilli vətəndaşlarına yox, məhz üçtərəfli Bəyanatda nəzərdə tutulduğu kimi, qanunsuz erməni hərbi birləşmələrinin qalıqlarının bölgədən çıxarılmasına aiddir. Ermənistan XİN-in bu məsələni məqsədli şəkildə təhrif edərək "etnik təmizləmə" adı altında təqdim etməyə çalışması, Ermənistanın əsl niyyətini ifşa edir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikasını 30 ilə yaxın qaz blokadasında saxlayan, Azərbaycanın Qarabağ bölgəsində ekosid və kultursid törədən və bu ərazilərə beynəlxalq missiyaların səfərlərinin qarşısını alan Ermənistan indi hansı əsaslarla beynəlxalq ictimaiyyətə çağırış edir?!

Saxta ittihamlarla beynəlxalq ictimaiyyətə yalan müraciətlər edən Ermənistan anlamalıdır ki, bölgədə sülh və sabitliyin təmin olunması yalnız üçtərəfli Bəyanatın bütün müddəalarının qeyd-şərtsiz icrasından asılıdır. Ermənistanın birgə Bəyanatın əksinə olan digər bütün addımları yalnız sülh quruculuğu prosesinə maneə olacaq.

O ki qaldı Azərbaycan ərazilərində müvəqqəti yerləşən Rusiya sülhməramlılarına aid məsələlərə, bununla bağlı Azərbaycan Respublikası Müdafiə Nazirliyinin müvafiq açıqlamalarında ətraflı məlumat verilib".

# İƏT XİN Şurasının iclasında Ermənistanın Azərbaycana qarşı təcavüzü və Xocalı ilə bağlı 4 qətnamə qəbul edilib

Martın 22-23-də Pakistan İslam Respublikasının İslamabad şəhərində İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) "Birlik, ədalət və inkişaf naminə tərəfdaşlığın qurulması" mövzusunda 48-ci sessiyası keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, sessiya İslam dünyası ilə bağlı bir çox mövzuları, o cümlədən Fələstin və Qüds Əl-Şərif məsələsi ilə bağlı qəbul edilmiş qətnamələrin həyata keçirilməsi üzrə İƏT Baş Katibliyinin fəaliyyətini və 2020-ci ildə Niameydə keçirilən son XİNŞ-dən sonrakı müddətdə təhlükəsizlik vəziyyəti müzakirə edilib. Sessiyada həmçinin digər siyasi məsələlər, xüsusilə Əfqanıstandakı hadisələr və onun əfqan xalqı üçün humanitar nəticələri, Cammu və Kəşmirdəki vəziyyət müzakirə olunub.

Tədbirdə Azərbaycanı xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. Sessiyada çıxış edən nazir müavini bir sıra fundamental məsələlərə dair ölkəmizin mövqeyini iştirakçıların diqqətinə çatdırıb.

İƏT XİNŞ-in 48-ci iclası çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələri ilə bağlı siyasi, iqtisadi və mədəni məsələləri əhatə edən "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması", "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi", "Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycanın ərazilərində İslam mədəniyyətinə aid tarixi və mədəni abidələrin dağıdılması" və "Xocalı qırğınının qurbanları ilə həmrəylik" adlı dörd qətnamə qəbul edilib. Qeyd edək ki, İƏT tərəfindən ənənəvi olaraq hər il qəbul olunan bu qətnamələrə bölgədəki son vəziyyət nəzərə alınmaqla yeni müddəalar daxil edilib.

"Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması" adlı qətnamədə Azərbaycanın cavab əməliyyatları nəticəsində işğal olunmuş ərazilərini azad etməsi və hərbi əməliyyatların dayandırılması üzrə 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatı üzv ölkələr tərəfindən alqışlanıb. Ermənistan və Azərbaycan arasında münasibətlərin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi əsasında əlaqələrin normallaşdırılmasına çağırış edilib. Həmçinin Ermənistanın beynəlxalq hüququ pozaraq, bütün minalanmış ərazilərin hərtərəfli və dəqiq xəritələrini və minalanmış sahələrin yerləşdiyi yerlərə dair digər məlumatları təqdim etməkdən davamlı boyun qaçırması pislənilib və Azərbaycan hökuməti və xalqının öz ölkəsinin müdafiəsi və onilliklər boyu davam edən erməni təcavüzü və işğalının ağır nəticələrinin aradan qaldırılması üçün göstərdiyi səylərlə tam həmrəylik və dəstək bir daha təsdiq edilib.

"Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü nəticəsində Azərbaycanın ərazilərində İslam tarixi və mədəni ziyarətgahlarının dağıdılması və təhqir edilməsi" adlı qətnamədə işğal dövründə Azərbaycan ərazilərindəki İslam tarixi və mədəni abidələrinin, ziyarətgahlarının dağıdılması, talan edilməsi, oğurlanması, qanunsuz yerdəyişməsi və ya mənimsənilməsi, eləcə də bu obyektlərə qarşı vandallıq aktlarının törədilməsi qətiyyətlə pislənilib, yenicə azad olunmuş ərazilərdə yerləşən məscidlərin Ermənistan tərəfindən təhqir olunması şiddətlə qınanılıb. Qətnamədə Azərbaycanın ona dəymiş zərərə görə təzminat tələb etmək haqqı, Ermənistanın isə bu təzminatı ödəmək məsuliyyəti təsdiq olunub.

"Azərbaycan Respublikasına iqtisadi yardım" adlı qətnamədə Azərbaycan ərazilərinin işğaldan azad olunmasının Azərbaycan ərazisindəki bir milyondan çox məcburi köçkünlərin öz evlərinə təhlükəsiz və şərəfli qayıdışına və beləliklə də ciddi humanitar problemlərin aradan qaldırılmasına imkan verəcəyi qeyd olunub. Bu xüsusda üzv ölkələrə, İslam İnkişaf Bankı və digər İslam institutlarına işğaldan azad olunmuş torpaqlara məcburi köçkünlərin geri dönüşünü təmin etmək üçün bu ərazilərin yenidən qurulması və bərpasında Azərbaycan hökumətinə və xalqına yardım etməyə çağırış öz əksini tapıb. Burada habelə bütün beynəlxalq institutlar Azərbaycanın iqtisadi və sosial inkişaf fəaliyyətini dəstəkləməyə çağırılıb.

İƏT XİN Şurasının 48-ci iclasında "Xocalı qırğınının qurbanları ilə həmrəylik" adlı qətnamə 1992-ci ilin fevral ayında Azərbaycanın Xocalı şəhərində və digər işğal edilmiş ərazilərində Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən azərbaycanlı mülki əhali və hərbi şəxslərə qarşı törədilmiş kütləvi vəhşiliklər qəti şəkildə pislənilib və üzv dövlətlər münaqişə dövründə Azərbaycanın Xocalı şəhəri və işğal edilmiş digər ərazilərində törədilmiş cinayətlərin müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər və soyqırımı kimi yerli və beynəlxalq səviyyədə tanınması istiqamətində lazımı səy göstərməyə səslənilib. Qətnamədə həmçinin "Xocalıya ədalət!" Beynəlxalq təşviqat kampaniyasının fəaliyyəti yüksək qiymətləndirilib və üzv dövlətlər kampaniyanı dəstəkləməyə və onun fəaliyyətində yaxından iştirak etməyə dəvət edilib.

# Vaşinqtonda Azərbaycan musiqisi gecəsi

## "Azercell" Novruz bayramında gənc musiqiçi Xan Bəylinin ABŞ-da konsertini təşkil etdi







**Martın 20-də "Azercell"in təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı səfirliyinin dəstəyi ilə ABŞ-ın paytaxtında Novruz bayramı münasibətilə gənc musiqiçi və bəstəkar Xan Bəylinin konserti təşkil olunub.**







Vaşinqtonun ən məşhur konsert zallarının birində keçirilən tədbirə Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim və "Azercell Telekom" MMC-nin prezidenti Zərinə Zeynalovanın dəvəti ilə Türkiyənin Vaşinqtondakı səfiri Murat Mercan, Qazaxıstan Respublikasının səfiri Yerjan Aşıkbayev, Özbəkistan Respublikasının səfiri Javlon Vahabov, Amerikadakı Azərbaycan və müxtəlif xalqların diaspor üzvləri, eləcə də yerli qonaqlar qatılıb.

Açılış nitqi ilə çıxış edən "Azercell"in prezidenti Zərinə Zeynalova şirkət tərəfindən həyata keçirilən bu tədbirin zəngin mədəni irsimizin, milli dəyərlərimizin beynəlxalq ictimaiyyətə tanıdılmasına töhfə verəcəyinə ümid etdiyini bildirib. Zərinə Zeynalova həm milli, həm də dünya musiqisinin müxtəlif çalarlarını öz əsərlərində əks etdirən gənc bəstəkar Xan Bəylinin fəaliyyətini yüksək qiymətləndirdiyini, onun öz ətrafında fərqli insanları birləşdirmək bacarığına malik olduğunu qeyd edib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı səfiri Xəzər İbrahim səhnəyə Azərbaycanın milli paltarlarını geyinmiş övladları ilə birlikdə çıxaraq qonaqları Novruz bayramı münasibətilə təbrik edib. Xan Bəylinin dünyaya örnək ola bilən Azərbaycan dəyərlərinin və musiqisinin ABŞ-da təbliğ edilməsində fəal iştirak etdiyini vurğulayan səfir, "Azercell"ə və bu təşəbbüsün gerçəkləşməsində əməyi keçən hər bir insana təşəkkür edib.

Tədbirin xüsusi qonağı İctimai Televiziya və Radionun aparıcısı Fateh bu musiqi ziyafətinə Xanın Azərbaycandakı pərəstişkarlarını və saat fərqinə baxmayaraq, səbirsizliklə bu konsertin yayımını gözləyən Azərbaycan auditoriyasını təmsil etmək üçün qatıldığını bildirib. Tanınmış aparıcı sosial media hesablarından izləyicilərinə konserti canlı izləmək imkanı yaradıb.

Ukraynada Azərbaycan ailəsində doğulan həmyerlimiz Xan Bəyli Azərbaycan xalq mahnıları, müasir estrada bəstələri ilə yanaşı, özünün müəllifi olduğu musiqiləri də səsləndirib. Muğamı caz və etnik musiqi ilə xüsusi improvizasiyada təqdim edən Xan Bəyli Amerikanın müxtəlif ştatlarından tədbirdə iştirak etmək üçün bir araya toplanan dinləyicilərinə öz musiqisi ilə Novruz öncəsi xoş ovqat bəxş edib.

Bostondakı Berkli Musiqi Kollecinin məzunu olan Xan Bəyli Azərbaycan musiqisinin xaricdə tanıdılması üçün fərqli və maraqlı layihələr icra edib, Jack De Johnette, John Medeski, David Fiuczynski və Screaming Headless Torsos, Ənvər İsmayılov, Erkan Ogur və digər tanınmış sənətçilərlə səhnəni bölüşüb.

Amerika icması tərəfindən tədbir böyük rəğbətlə qarşılanıb. Qonaqlar və icma nümayəndələri xoş təəssüratlarını aktiv şəkildə sosial media hesablarında paylaşıblar. Konsertdən görüntülər tez bir zamanda "Azercell"in rəsmi "YouTube" kanalında paylaşılacaq.

"Azercell Telekom" MMC Azərbaycan musiqisini beynəlxalq müstəvidə təbliğ edən həmyerlimiz Xan Bəyliyə gələcək fəaliyyətində uğurlar arzu edir!

# 94-cü "Oskar" qalmaqalsız ötüşmədi

Amerika Kino Sənəti Akademiyasının "Oskar" mükafatının 94-cü təqdimat mərasimi keçirilib və 2022-ci ilin ən yaxşı filmləri müəyyən edilib.







Los-Ancelesdəki Dolby Teatrında Hollivudun ulduzları, kino sənayesinin onlarca nümayəndəsi və çoxsaylı qonaqlar toplanıb.

"İlin ən yaxşı filmi "nominasiyasında "CODA: Kar valideynlərin övladı" (rejissoru Şanq Hader) adlı film "Oskar"a layiq görülüb. Bu film həm də üç kateqoriyada qalib kimi tanınıb.

Kino Akademiyası "Köpəyin hakimiyyəti" filmi üzərində işinə görə Yeni zelandiyalı Ceyn Kempionu 2022-ci ilin ən yaxşı rejissoru adlandırıb.

"Ən yaxşı kişi rolu" nominasiyasında "Kral Riçard" filmindəki işinə görə Uill Smit baş mükafatı qazanıb. Bu, indiyədək onlarca parlaq rol oynamış məşhur amerikalı aktyorun ilk "Oskar"ı idi.

"Temmi Feyin gözləri" filmindəki roluna görə Cessika Çesteyn ilin "Ən yaxşı aktrisa"sı seçilib.

"İkinci planın ən yaxşı qadın rolu" nominasiyasında rejissor Stiven Spilbergin "Vestsayd hekayəsi" filmində yaratdığı obraza ğörə Ariana DeBos qalib gəlib.

"CODA: Kar valideynlərin övladı" filmində "İkinci planın ən yaxşı kişi rolu"nun ifasına görə Ukrayna mənşəli lal-kar aktyor Troy Kotsur "Oskar"a layiq görülüb.

"Ən yaxşı tammetrajlı animasiya filmi" nominasiyasının qalibi "Enkanto" (Disney studiyası) filmi, "Ən yaxşı qısametrajlı animasiya filmi isə rejissor Alberto Myelqonun "Şüşəsilən"i (ABŞ və İspaniya birgə istehsalı) olub.

Məşhur müğənni Billi Ayliş və Finneas O'Konnell Ceyms Bond haqqında çəkilmiş "Ölmək vaxtı deyil" filmində "Time To Die" kompozisiyasının ifasına görə "Oskar" mükafatına layiq görülüblər.

Bu il nominasiyaların sayına görə rekord sahibi Netflix istehsalı - "Köpəyin hakimiyyəti" vesterni olub. Bu film 12 kateqoriyada təmsil olunub.

Rejissor Deni Vilnevin "Düna" ("Qum təpəciyi") filmi 10 kateqoriyada təmsil olunsa da, 6 "Oskar" alıb, özü də ikinci dərəcəli nominasiyalarda.

"Vestsayd hekayəsi" və "Belfast" 7 nominasiya üzrə, "Kral Riçard" isə 6 nominasiyada qələbə iddiasında idilər.

Digər laureatlara gəldikdə isə, "Ən yaxşı xarici film" nominasiyası üzrə mükafata Yaponiyanın "Maşınımın sükanı arxasında otur" adlı lent layiq görülüb.

"Ən yaxşı orijinal ssenari" - Kennet Brananın "Belfast" filmi. "Ən yaxşı sənədli film"- "Soulun yayı", "Kostyumların ən yaxşı dizaynı" - Cenni Bevan, "Kruella" filmi", "Ən yaxşı qısametrajlı film" - "Uzun çəkən əlvida". "Ən yaxşı qısametrajlı sənədli film" - "Basketbol kraliçası" olub.

Canlı efirdə nümayiş olunan mərasim böyük qalmaqal yaşanmadan ötüşməyib. "Ən yaxşı kişi rolu" nominasiyasında qalib gələn amerikalı aktyor Uill Smit səhnəyə çıxıb və mərasimin aparıcısı, komik Kris Roka yaxınlaşaraq ona şillə vurub.

Qalmaqallı hərəkət üçün bəhanə Smitin həyat yoldaşı Ceyda Pinkett-Smitin ünvanına aparıcının uğursuz zarafatı olub.

İnsident zamanı yayım rejissorları səsi söndürməyə məcbur olublar, çünki Smitin çıxışı senzuradankənar söyüşlə müşayiət edilib.

Lakin tezliklə Smit bu hərəkətinə görə zalda toplaşanlar və mərasim iştirakçıları qarşısında üzr istəyib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

---

*Təkrar*

## "Azərişıq"ASC Şuşa şəhəri ərazisində tikiləcək Qazanxanaların və 5 ədəd yaşayış binasının istilik elektrik təchizatının qarşılanması məqsədilə görüləcək işlərin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1: Şuşa şəhəri ərazisində tikiləcək Qazanxanaların və 5 ədəd yaşayış binasının istilik elektrik təchizatının qarşılanması məqsədilə görüləcək işlərin satın alınması

**İştirak haqqı - 1500 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, M.Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs: Namiq Heybətov (telefon: 440-39-93, daxili (92-19))
namiq.heybetov@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə;*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar;*
- *iddiaçının analoji işlərdə təcrübəsi haqqında məlumat;*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat;*
- *müvafiq işlər üzrə lisenziya və sertifikatları;*
- *satınalan təşkilatın müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir **(https://etender.gov.az/)**.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 aprel 2022-ci il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **22 aprel 2022-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **25 aprel 2022-ci il saat 15:00-da** Mirzəağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***

---

# "Azərişıq" ASC-nin əməkdaşları qeyri-sabit hava şəraitində fəaliyyətlərini davam etdirir

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə qarlı, şaxtalı hava şəraitində elektrik enerjisinin verilişində yaranan qəzalar aradan qaldırılır. Xüsusilə ucqar dağ kəndlərində işlərin çətinliyinə baxmayaraq, qarşıya qoyulan tapşırıqlar uğurla icra edilir. Onu da qeyd edək ki, öncədən bütün ərazilərə əlavə mal-material göndərilib və işlərin həyata keçirilməsinə maşın-mexanizmləri cəlb edilib.

---

## B İ L D İ R İ Ş

Ağstafa Rayon İcra Hakimiyyəti tərəfindən Ağstafa rayonunda aztəminatlı ailələrin mənzil şəraitlərinin yaxşılaşdırılması üçün tikinti materiallarının satın alınması məqsədilə keçirilmiş açıq tender prosedurunun nəticəsi Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən ləğv edilməsi ilə əlaqədar olaraq tender proseduru yenidən keçiriləcəkdir.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

**"AzərEnerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 23.12.2021-ci tarixdə elan edilmiş 330/110/10 kV-luq "Ağcabədi" yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işləri, 330/230/110/35/10 kV-luq "İmişli" yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işləri, "Bakı-3" Elektrik Yarımstansiyasının İdarəetmə Mərkəzinin tikintisi işləri və "Şimal" Elektrik Stansiyasında yeni su soyutma estakadasının tikintisi və istismara verilməsi işlərinin satın alınmaları** üzrə açıq tender üsulu ilə keçirilən müsabiqədə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmişdir. Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən "Electro İndustries" QSC, "Azconstruction" QSC və "BCC Group" müsabiqələrin qalibləri müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilatlarla müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar xidməti tərəfindən 16 saylı cəzaçəkmə müəssisəsinin təsərrüfat bölməsinin böyük mütəxəssisi (anbar müdiri) Allahverdi Bağır oğlu Məmmədovun adına 23.10.2019-cu il tarixdə verilmiş PX 5305 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Xarici İşlər Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri

**VƏHDƏT MƏMMƏDAĞA OĞLU SULTAN-ZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev və şöbənin əməkdaşları Mehdi Qurbanov, Ziya Qasımov, Gülarə İbrahimova, Təranə Qurbanova, Həsən Şirinov, Cahid Məmmədov və Seymur Əşrəfli iş yoldaşları Kəmalə Əzimovaya atası

**MUSTAFA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin əməkdaşları Məhəmməd Bazıqov, Rövşən Muradov, Nadir Sultanov, Sevinc Rəhimova, Kamalə Məmmədova, Nigar Qurbanova, Rəşad Mehdizadə, Əkbər Salehov və Sevil İbrahimova Sosial qanunvericilik şöbəsinin sektor müdiri Kəmalə Əzimovaya atası

**MUSTAFA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının kollektivi kafedranın müəllimi Nelya Əliyevaya anası

**TAHİRƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rüstəm Rüstəmov, Abid Əliyev, Ayaz və Əlikram Qasımovlar, Rafiq Hüseynov, Elxan İlyasov və Elxan Behbudov "Casa Mia" şirkətinin əməkdaşı Cabit Əsədova əzizi

**CƏLAL İBRAHİM OĞLU HÜSEYNOVUN**

Samux şəhərində vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan Şəhər Məhkəməsinin kollektivi məhkəmənin hakimi Ziya Əliyevə atası

**MÜQƏRRƏM ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5685
Sifariş 815
Qiyməti 40 qəpik